

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 oktyabr
2024-cü il,
şənbə
№ 198 (6784)
Qiymәti
60 qəpik


# “Zəfər tariximiz - Qubadlının Ermənistan işğalından azad edilməsindən dörd il ötür”

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlının işğaldan azad edilməsinin ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb





İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər,

Translate Tweet

1:27 PM · Oct 26, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

Replying to @azpresident

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərini və Qubadlı şəhərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

1:27 PM · Oct 26, 2020 · Twitter Web App

# Zəfərə 14 gün qalırdı...

Bax səh. 2

# Kazan görüşü: sülh prosesində növbəti mərhələ



Bax səh. 3

# Bərdə terrorundan 4 il ötür...

Bax səh. 3

# Gürcüstan üçün seçim anı



Bax səh. 5

## Multilaterializm prinsiplərinə əsaslanmaqla...

XXI əsr, xüsusilə üçüncü onillik yeni iqtisadi-siyasi çağırışları aktual edir. Mövcud kataklizmlərin lokallaşdırılması, iqtisadi hədəflərin seçilməsi, qlobal çağırışların səsləndirilməsi, təşəbbüslərin irəli sürülməsi, ən əsası fərdi maraqların qlobal maraqlara dəyişilməsi kimi mövcud faktorlar yeni dövrün xarakterik siluetini təşkil edir. Azərbaycanın həyata keçirdiyi siyasət həm də bu mənada, bütün kriteriyalar üzrə düzgün istiqamətləndirilib. Müasir qlobal çağırışları əsas götürərək çoxtərəfli əlaqələrin inkişafını hədəfləyən Azərbaycan qısa zaman kəsiyində mühüm uğurlara imza atıb. Ölkəmizin keçdiyi iqtisadi-siyasi...

Bax səh. 2

## Hüquqi və tarixi saxtakarlıqla dolu “sənəd”...

Erməni lobbisinin yuvasına çevrilmiş Avropa Parlamenti (AP) COP29 ərəfində ölkəmizə qarşı qərəzini və düşmənçilik mövqeyini daha da gücləndirir. Bu təşkilat dövlətimizin ərazilərini işğaldan azad etməsini, Qarabağ ərazisində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir. Bu səbəbdəndir ki, Avropa Parlamentində Vətən müharibəsindən sonra Azərbaycanla bağlı əsassız müzakirələr və qəbul olunan “sənədlərin” sayı xeyli artıb.

Oktyabrın 22-də Avropa Parlamentində növbəti dəfə “Azərbaycanda siyasi vəziyyət və insan haqları məsələləri”, eləcə də...

Bax səh. 4

## Kosmik sənayemizin qlobal gücü...

Azərbaycanın Kosmik Agentliyi (“Azərkosmos”) ilə İtaliyanın yerüstü idarəetmə üzrə xidmət təminatçısı olan “Leaf Space” şirkəti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədə əsasən, “Azərkosmos”un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin Bakı teleportunda 3,7 metrlik “S/X” diapazonlu anten quraşdırılıb. Yeni qurğu sistemi müxtəlif peyklərdən toplanan kritik məlumatların emalı və ötürülməsini, peyk şəbəkələri arasında nəzarəti, eləcə də kosmosdakı cihazların monitorinqini həyata keçirməyə imkan verəcək.

“Azərkosmos”un kosmik arxitekturasına daxil olan yeni nəsil çoxfunksiyalı teleport Avropa, Asiya və Afrika ölkələrindən olan müştərilərə virtual şəbəkə operatoru, kiçikölçülü...

Bax səh. 4

## Korsikada azadlıq mübarizəsinin yeni mərhələsi

Dördüncü sənaye inqilabına keçid etdiyimiz XXI əsrin inkişaf səviyyəsi, baxışları və çağırışları müstəmləkəçilik təzahürləri ilə daban-dabana ziddiyyət təşkil edir. Biri müasirlik və gələcəkdir, digəri isə tarixin zibilliyində qalası keçmişdir. Ancaq Fransa müasirliyi, inkişafı simvolizə edən demokratiya, bərabərlik, insan haqları kimi prinsipləri bəyan etsə də, yüzilliklər ərzində öz nəzarətində saxladığı ayrı-ayrı Afrika və dənizaşırı ərazilərdə müstəmləkəçilik siyasətini hələ də ən eybəcər formada davam etdirir. Yelisey Sarayından verilən mesajlardan o qənaət hasil olur ki, rəsmi Paris qeyd olunan ərazilərdə...

Bax səh. 7

# Xəyallarının ardınca gedənlər...



Bax səh. 6

# Korrupsiya girdabında boğulan AP



Bax səh. 6



# Qardaş Qazaxıstanla birgə layihələrin reallaşdırılmasında maraqlıyıq

Azərbaycan qardaş Qazaxıstanla iqtisadiyyat, nəqliyyat-logistika, rəqəmsallaşma, infrastruktur, enerji, humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə səmərəli tərəfdaşlığın inkişaf etdirilməsində və birgə layihələrin reallaşdırılmasında maraqlıdır.

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə bu ölkənin milli bayramı - Respublika Günü münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb.

Məktubunda Azərbaycan xalqı adından ən xoş arzularını çatdıran Prezident İlham Əliyev qeyd edib: "Sizin qardaş Qazaxıstanın hərtərəfli inkişafına yönəlmiş qətiyyətli siyasətiniz və həyata keçirdiyiniz islahatlar nəticəsində ölkəniz mühüm nailiyyətlər və uğurlar əldə etmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Qazaxıstana hər səfərimdə çiçəklənən və müasir bir diyara çevrilmiş ölkənizi görməkdən böyük qürur duyuram".

Xalqlarımızın ortaq tarixi-mədəni köklərindən güc alan, qarşılıqlı inam və dəstəyə əsaslanan Azərbaycan-Qazaxıstan əlaqələrinin və əməkdaşlığının gündən-günə genişlənərək yeni məzmunla zənginləşməsinin məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı əlavə edib: "Qarşılıqlı ali və yüksək səviyyəli səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan çoxsaylı sənədlər, həyata keçirdiyimiz birgə layihələr çoxşaxəli əməkdaşlığımızın inkişafında əhəmiyyətli rol oynayır. Bu mənada cari ilin martında Azərbaycana dövlət səfərinizi xüsusi qeyd etmək istərdim".

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, Azərbaycan-Qazaxıstan əlaqələrinin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişləndirilməsi, xalqlarımızın firavanlığı, ölkələrimizin və regionumuzun rifahı naminə əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi, strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin daha da möhkəmləndirilməsi istiqamətində birgə səylər bundan sonra da uğurla davam etdiriləcək.

# Multilaterializm prinsiplərinə əsaslanmaqla...

## Azərbaycan çoxtərəfli diplomatik əlaqələrin inkişafına töhfə verir

XXI əsr, xüsusilə üçüncü onillik yeni iqtisadi-siyasi çağırışları aktual edir. Mövcud kataklizmlərin lokallaşdırılması, iqtisadi hədəflərin seçilməsi, qlobal çağırışların səsləndirilməsi, təşəbbüslərin irəli sürülməsi, ən əsası fərdi maraqların qlobal maraqlara dəyişilməsi kimi mövcud faktorlar yeni dövrün xarakterik siluetini təşkil edir. Azərbaycanın həyata keçirdiyi siyasət həm də bu mənada, bütün kriteriyalar üzrə düzgün istiqamətləndirilib. Müasir qlobal çağırışları əsas götürərək çoxtərəfli əlaqələrin inkişafını hədəfləyən Azərybaycan qısa zaman kəsiyində mühüm uğurlara imza atıb. Ölkəmizin keçdiyi iqtisadi-siyasi yola nəzər salsaq:

- Son 20 ildə beynəlxalq münasibətlər sistemində olduqca aktiv mövqe tutmuşuq;
- Ölkəmiz çoxtərəfliyin təşviqi ilə bağlı mühüm bir xətti izləyir;
-Yürüdülən çoxvektorlu xarici siyasət kursu Azərbaycanın bugünkü uğurlarının ən mühüm komponentlərindən biri kimi çıxış edir.

### Çoxtərəfli siyasi münasibətlər sisteminin əyani tablosu...

Beləliklə, bir həqiqət növbəti dəfə təsdiqlənir - Azərbaycanın məyyənləşdirdiyi siyasi hədəflər yalnız Cənubi Qafqaz sərhədləri ilə məhdudlaşmır, daha geniş geocoğrafi anlam daşıyır. Əgər 2020-ci ilə qədər Azərbaycan özünün inkişaf göstəricilərinə əsasən Cənubi Qafqazın lideri sayılırdısa, post-müharibə dövründə, qlobal oyunçu kimi beynəlxalq münasibətlər sisteminin mühüm bir parçasına çevrilməyi bacardı. Burada məsələ yalnız 44 günlük Vətən müharibəsi və onun nəticələri, yaratdığı reallıqlar ilə çərçivələnmir - mahiyyət etibarı ilə Azərybaycan müharibədən öncə də qlobal təşəbbüsləri ilə gündəmə gəlir, beynəlxalq situasiyanın müəyyənləşməsi prosesində özünü ifadə edirdi. Ölkəmiz bu davranış və yaratdığı mənzərə ilə müasir beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin tablosunu formalaşdırıb. Bu fikri misallarla da təsdiqləmək olar:

- 2011-ci ildə BMT TŞ-nin qeyri-daimi üzvü kimi Mərkəzi Avropanı təmsil etməsi və təmsilçiliyi dövründə bu məsuliyyəti layiqincə həyata keçirməsi;
- 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövrümüz və həmin vaxt qlobal problemlərə qarşı vahid mübarizə platformasının yaradılması...

Beləliklə, Azərbaycanın yaratdığı presedent dünya üçün yeni bir nümunə ortaya qoyur: çoxtərəfliyin əyani isbatı, qlobal mənafenin qorunmasının əməli sübutu, beynəlxalq hüquq və ədalət çərçivəsində yanaşmanın formalaşdırılmasının bariz formatı...

### Fəal qlobal əməkdaşlığın nümunəsi: Qoşulmama Hərəkatı...




Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasındakı çıxışında Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib: "Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir".

Bəli, Azərbaycanın çoxtərəfliliyə sədaqətinin ən bariz nümunələrindən biri məhz Qoşulmama Hərəkatına edilmiş uğurlu sədrlik dönəmidir - ötən 4 il ərzində ölkəmizin BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq hələ də təqdir edilməkdədir. 2019-cu ilin 25-26 oktyabr tarixlərində keçirilmiş Bakı Sammitindən sonrakı müddətdə Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan üzv ölkələr tərəfindən iki dəfə yekdil səsçoxluğu ilə dəstəklənib - həm sədr seçkisi zamanı, həm də sədrlik müddətimiz uzadılan zaman. Bu platforma Azərbaycanın qlobal müstəvidə oynaya biləcək mühüm rolunu bütün dünyaya nümayiş etdirdi - Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə qlobal əhəmiyyətli çox mühüm təşəbbüslər irəli sürüb. Bu təşəbbüslər həm Qoşulmama Hərəkatının imicinin möhkəmlənməsinə, həm də bu beynəlxalq təsisatın müasir dünya siyasətində funksional aktor kimi mövqeyinin güclənməsinə əhəmiyyətli töhfə olub. Çoxtərəfli əməkdaşlığın inkişafına göstərilən dəstək, qlobal müzakirələrdə bütün dövlətlərin maraqlarının nəzərə alınması kimi müasir dövrdə bir az ikinci plana düşmüş prinsiplər Azərbaycanın sədrliyi dönəmində Qoşulmama Hərəkatı üçün əsas tezislərinə çevrilməyi bacardı. Məsələn, bizim Hərəkata sədrlik dönəmimizə təsadüf edən COVID 19 pandemiyası dövründə Azərbaycan qlobal diqqəti bu problemlə mübarizədə təmərküzləşdirə bildi - ölkəmiz dünyanı iflic vəziyyətinə salmış pandemiyaya qarşı birgə mübarizə aparmaq və bütün səylərin səfərbər edilməsinə nail oldu. Azərbaycan tibbi ehtiyacların müəyyən edilməsi məqsədilə Hərəkata üzv dövlətlərin məlumat bazasının yaradılmasına nail oldu - hansı ki, bu gün də Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusa qarşı aparılan mübarizədə mövcud ehtiyacların müəyyənləşdirilməsi məqsədilə istinad mənbəyi kimi həmin məlumat bazasından istifadə edir. Azərbaycanın peyvənd ayrı-seçkiliyinin qarşısının alınmasında oynadığı rol isə daha mühüm əhəmiyyət kəsb edir - ölkəmiz həmin çətin günlərdə peyvəndlərin ədalətli bölgüsünü mühüm prioritetlərdən biri kimi bütün dünyaya təqdim etdi. Hətta bir sıra ölkələrin peyvəndlə təmin edilməsi üçün səy göstərən Azərbaycan bütün dünyaya örnək bir presedent bəxş etdi.

### BRICS: uğurlu təcrübənin yaradacağı yeni perspektivlər...

Bu, sadəcə, bir qlobal problem üzərindən Azərbaycanın uğurlu fəaliyyətinin araşıdırılması sayıla bilər. Azərbaycanın hazırladığı və ortaya qoyduğu strateji yol xəritəsi çoxtərəfliliyin konseptual olaraq qəbul edilməsində əhəmiyyətli rol oynayır. Bunun nəticəsidir ki, artıq dünya fərdi maraqları deyil, ümumən regional, hətta qlobal maraqları, dəyərləri qorumağı özündə ehtiva edən çoxtərəfliyin üstünlüklərini əyani şəkildə görür və qiymətləndirir. Bu gün həm Qoşulmama Hərəkatının fəal üzvü, həm də digər əməkdaşlıq platformalarının aparıcı siması kimi Azərbaycan özünün formalaşdırdığı bu yüksək dəyərin təbliğatını inkişaf etdirir. Mövcud reallıqda BRICS yeni yaranan platforma sayılsa da, mühüm hədəflərə malikdir. Azərbaycan özünün təcrübəsini həm də bu təşkilatın fəaliyyət yoluna proyeksiya edə bilər ki, bu da təşkilata və onun üzv ölkələrinə mühüm dividend yaradar, həm siyasi, həm iqtisadi əməkdaşlıqda yeni perspektivlər formalaşdırar. Təsadüfi deyil ki, BRICS+ formatında Azərbaycan kimi yüksək və ardıcıl inkişaf trayektoriyası izləyən ölkələrin fəal iştirakı həm coğrafi, həm də iqtisadi cəhətlər arasındakı əlaqələrin güclənməsinə yol açır - Şimal-Cənub, Şərq-Qərb istiqamətli diapazonun kəsişməsi məhz Azərbaycanda reallaşır. Uğurlu siyasi təcrübəsi ilə yanaşı, özünün təqdim etdiyi geoiqtisadi və geosiyasi üstünlüklərlə Azərbaycan bu təşkilat üçün maraqlı bir ölkə statusunu qazanır. Yaranan münasibətlər məhz bu nöqteyi-nəzərdən daha fəal inkişaf yolu izləməyə imkan yaradır.

Azərbaycan beynəlxalq birliyə əməkdaşlıq və tərəfdaşlıq nümunəsi göstərir - ölkə maraqlarının qlobal mənafe ilə uzlaşdırılması, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, sabitliyə xidmət edən xəttə dəstəyin verilməsi, sülh uğrunda yorulmaz səy göstərilməsi respublikamızın yaratdığı reallıqlar içində dəstəklənən yeni münasibətlər sisteminin ana xəttini təşkil edir. Multilaterializm prinsipilərinə bağlılıq və bu xəttin əsas götürülməsi Azərbaycanın uğurlu çoxtərəfli siyasi kurs yürütməsində əsaslı rol oynayır.

*Pərviz SADAYOĞLU*

# Zəfərə 14 gün qalırdı...

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**


İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər,
Translate Tweet
1:27 PM · Oct 26, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Replying to @azpresident
Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərini və Qubadlı şəhərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
1:27 PM · Oct 26, 2020 · Twitter Web App

**Vətən müharibəsinin 30-cu günü**

**26.10.2020**

• Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə bağlı Prezident İlham Əliyev xalqa müraciət edib.

• Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri vurulub.

• Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimini kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərindəki bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutub. Düşmən, həmçinin "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərinə atəş açıb. Ümumilikdə oktyabrın 26-da Tərtər də daxil olmaqla, yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb.

• Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Padar, Xanlıq kəndlərinin və Qubadlı şəhərinin videogörüntülərini paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi sentyabrın 27-dən oktyabrın 26-sı saat 12:00-dək ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 65 mülki şəxs həlak olub, 297 nəfər xəsarət alıb, 2243 ev, 90 çoxmənzilli yaşayış binası və 402 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Kiçik çavuş Rahib Həşimov döyüş tapşırığını layiqincə yerinə yetirərək düşmənin bir neçə artilleriya qurğusunu məhv edib.

**Vətən müharibəsinin 31-ci günü**

**27.10.2020**

• Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də bir T-72 tankı, dörd D-30 və üç D-20 topu, bir "Osa-AKM" ZRK, bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir radiolokasiya stansiyası və altı avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib.

• Düşmənin silahlı birləşmələri Goranboy və Bərdə rayonlarını müxtəlif istiqamətlərdən intensiv raket və ag?ır artilleriyadan atəs?ə tutub. Bu xain hücum nəticəsində ilkin məlumata görə, Bərdə rayonunun Qarayusifli kəndinin sakinləri Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı və yeddi yaşlı İsgəndərova Aysu Rövşən qızı həlak olub, yeddi nəfər isə xəsarət alıb. Prokurorluq əməkdaşları tərəfindən zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan ordusunun Bərdə rayonunu raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib.

• Azərbaycan Ordusunun düşməndən qənimət götürdüyü tanklar təmirdən sonra yenidən döyüşə göndərilir.

**Vətən müharibəsinin 32-ci günü**

**28.10.2020**

• Ermənistan ordusu Bərdəni raket atəşinə tutub, 21 dinc sakin həlak olub, 70-ə yaxın şəxs yaralanıb.

Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində bildirib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

• Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad edib.

Bununla bağlı Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində məlumat verib.

• Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.


İlham Əliyev
@azpresident
Replying to @azpresident
Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
4:32 PM · Oct 28, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac,
Translate Tweet
4:32 PM · Oct 28, 2020 · Twitter Web App

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb, Ermənistan silahlı qüvvələri itki verərək geri çəkilib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, eləcə də bir "Osa" zenit raket kompleksi, üç BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, altı D-30, beş D-20 və bir D-44 topu, iki 2A36 "Qiasint-B" topu, bir minaatan, bir "Konkurs" tank əleyhinə raket kompleksi və altı avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatın videogörüntüsünü paylaşıb.

• Azərbaycan Ordusunun bölmələri şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini, xeyli sayda hərbi texnikasını darmadağın edib.

• Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyərək döyüş meydanından qaçan düşmən qüvvələri, mülki infrastrukturu və dinc əhalini atəşə tutan şəxsi heyət bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

# Kazan görüşü: sülh prosesində növbəti mərhələ

## Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tez yekunlaşdırılması nəzərdə tutulur

Cənubi Qafqazda sülhün formalaşması regional sabitliyin yaranması ilə yanaşı, yeni iqtisadi gündəmə əsaslı təsir göstərir. Belə ki, mövcud situasiyada önə çıxan çağırışların hər biri nəticə etibarı ilə sülhlə əlaqəlidir - istər regional təhülkəsizliyin təmin edilməsi, istər iqtisadi münasibətlərin yeni formatda inkişafı prosesi, istərsə də beynəlxalq əməkdaşlığın daha irəli aparılması üçün yaranması gərəkən zəmin sülhə söykənir. Bu mənada, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi bütövlükdə, region ölkələri tərəfindən diqqətlə izlənir.

Son dönəmlərdə verilən bəyanatlar, açıqlamalar sülhlə bağlı pozitiv mənzərə yaratsa da, Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi ortaya mühüm suallar çıxarır. Halbuki, beynəlxalq hüququn tələblərinə uyğun davranış İrəvan üçün yeni perspektiv deməkdir - sülhün imzalanması üçün göstərilən səylər iqtisadi-siyasi dividendlərə əsaslanır.

### İkitərəfli danışıqlar davam edir...

Təsadüfi deyil ki, sülh məsələsi yenidən müzakirə predmeti olub - oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Görüşdə ikitərəfli sülh gündəliyinin irəli aparılması, o cümlədən sülh sazişi, sərhədlərin delimitasiyası və demarkasiyası, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tez yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

Əslində, sülhlə bağlı bütün detallar kifayət qədər açıqdır. Sülh üçün mütləq şərt kimi çıxış edən məsələlər öz həllini tapmalıdır. 2022-ci ildən başlanan və ötən dövr ərzində bir neçə mərhələdə müzakirə və mübadilə edilmiş, bəzi məsələlər üzərindən razılıqların əldə olunduğu sülh prosesində müəyyən irəliləyişlər də nəzərə çarpır:

- Ötən ilin dekabrında hər iki ölkənin müvafiq dövlət strukturlarının birgə açıqlaması;
- Qarşılıqlı olaraq hərbçilərin azad edilməsi;
- Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağı da Azərbaycan torpaqları kimi tanıdığını bəyan etməsi;
- COP29-a ev sahibliyini dəstəkləməsi;
- Bu ilin aprelində 4 kəndin qaytarılması, 13 kilometrlik ərazidə müvafiq delimitasiya hətta demarkasiya fəaliyyətinin reallaşdırılması;
- Müvafiq komissiyaların apardığı birgə müzakirələr, qəbul edilən Əsasnamə bu tezisi dəstəkləyir.

Yeri gəlmişkən, bu ilin avqustunda Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə oktyabrın 23-də Ermənistan parlamenti tərəfindən təsdiqlənib. Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Dövlət Sərhədinin Demarkasiyası üzrə Dövlət Komissiyası arasında "Dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın birgə fəaliyyəti haqqında" sənəd ratifikasiya edilib. Bu da özlüyündə Azərbaycanın sülhlə bağlı ortaya qoyduğu tələblərin İrəvan tərəfindən yerinə yetirilməsinin təsdiqi kimi meydana çıxır.




### İrəvan beynəlxalq hüquqa riayət etsə...

Bununla belə, sülh üçün əsas amillər hələ də açıq qalmaqdadır. Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərtdən biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. İlk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülhü üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklərin edilməlidir.

Digər məqam isə, vaxtilə "münaqişə"nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll oluna bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk Qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

### İkitərəfli formatın yaratdığı üstünlüklər...

Beləliklə, Kazan görüşü növbəti dəfə Azərbaycanın məsələyə yanaşmasının haqlı olduğunu bütün detalları ilə ortaya çıxardı - keçirilən ikitərəfli görüşdə səsləndirilən fikirlər, verilən təlimatlar onu göstərir ki, məsələnin qarşılıqlı təmas formatında real həlli mövcuddur. Məsələyə kənar müdaxilə və ya fərqli vasitəçilik "arzusu" üçüncü bir tərəfin bu və ya digər şəkildə ən minimal həddə də olsa, öz maraqları müstəvisindən çıxış etməsinə yol açır. Bu mənada, Azərbaycan müzakirələrin ikitərəfli təmas formatında inkişafını dəstəkləyir. O başqa məsələdir ki, ayrı-ayrı dost ölkələr, həm Azərbaycan, həm də Ermənistanla münasibəti olan dövlətlər bu ikitərəfli müzakirələrin reallaşması üçün məkan-platforma təklifləri edirlər. Bir müddət əvvəl Qazaxıstanda baş tutan bu tip ikitərəfli görüş, son Kazan görüşü buna misaldır.

Beləliklə, Ermənsitan üçün hazırkı münbit şərait bir çox üstünlüklər vəd edir - İrəvan destruktiv qüvvələrin boş və yalan vədlərinə inanmamalı, bölgənin gələcək pespektivi üçün yenidən təhdid yaratmamalıdır. Əksinə, sülhün imzalanması bölgəyə yeni iqtisadi şəkillәndirmə verəcəyi qədər Ermənistanın da dirçəlməsinə vəsilə olacaq. Bu isə İrəvanın dövlət maraqları ilə üst-üstə düşür...

**P.İSMAYILOV**

# Bərdə terrorundan 4 il ötür...

44 günlük Vətən Müharibəsinin nəticələri dövlətimizin gücünü, xalqımızın mübarizə əzmini, sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan möhtəşəm qələbə qazanmaqla tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail oldu.





Vətən müharibəsində rəşadətli ordumuzun qarşısında aciz qalan təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini dəfələrlə pozaraq mülki əhaliyə qarşı hücum edib. Ermənistan, həmçinin "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il Cenevrə Konvensiyasının tələblərini də heçə sayaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirib. 27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində Ermənistan hərbi birləşmələri tərəfindən vurulan zərbələr nəticəsində azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılıb. Döyüş meydanında məğlub duruma düşən Ermənistan davamlı şəkildə Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək müharibə və insanlıq əleyhinə cinayətlər törədib.

Erməni faşizminin növbəti təzahürü olan bu cinayətkar əməldən ən çox zərər görən regionlardan biri də döyüş zonasından xeyli uzaqda yerləşən Bərdə şəhəri və onun kəndləri oldu. 44 günlük Vətən müharibəsində düşmən Bərdə rayonunun bir sıra kəndlərini və rayon mərkəzini dəfələrlə atəşə tutub. Bərdə şəhərinə ilk raket hücumu zamanı 1 mülki şəxs dünyasını dəyişdi, xeyli sayda yaralanan oldu. Bu qanlı cinayətlər 2020-ci ilin 27 və 28 oktyabrında da törədilib. Belə ki, oktyabrın 27-də rayonun Qarayusifli kəndinə edilən raket hücumu 4 nəfərin həyatına son qoydu. Həlak olanlardan biri azyaşlı qız uşağı idi. Miqyası baxımından Bərdəyə ən qanlı və qəddar raket hücumu isə oktyabrın 28-də gündüz saatlarında olub. Ermənistanın bu terror hücumlarından artıq 4 il ötür. Humanitar atəşkəsi kobud şəkildə pozan Ermənistan hərbi birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə qadağan olunmuş silahlarla hücum nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olub, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.



Bu terror hücumundan sonra ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri hadisə yerində olub, erməni vəhşiliyini öz gözləri ilə görüblər. Eləcə də hadisə yerində olan xarici jurnalistlər də Bərdə qətliamını beynəlxalq mediada təkzibolunmaz faktlarla işıqlandırıblar.

Göründüyü kimi, Ermənistan hərbi birləşmələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, döyüş meydanındakı ağır məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə və cəbhə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini atəşə tutub. Belə ki, erməni hərbi birləşmələri yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçib, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda, qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törədib, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirib, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurublar.

Ermənistan hərbi birləşmələrinin 44 gün sürən Vətən müharibəsinin gedişatında bir neçə iri şəhəri, o cümlədən yarım milyondan çox əhali yaşamaqla Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Bərdəni hədəf alması 1988-ci ildən davam etdirilən təcavüzkar siyasətin tərkib hissəsi idi.

Ümumilikdə, Vətən müharibəsində 100-dən çox mülki insan erməni terroru nəticəsində həyatını itirib. Erməni silahlı qüvvələrinin bu hücumları təşkil edərkən əsas məqsədləri daha çox insanın həyatına son qoymaq olduğundan, məhz şəhərin mülki şəxslərin kompakt yaşadığı hissələri hədəfə alınıb.

Xatırladaq ki, müharibə dövründə Qarabağdakı erməni separatçılarının başçısı Arayik Arutunyanın özü Azərbaycanın döyüş bölgəsindən uzaq olan yaşayış məntəqələrinə raket hücumu əmrini verdiyini etiraf etmişdi. Hazırda Arayik və digər separatçılar, günahsız insanların qatilləri Bakıda həbsxanadadırlar. Onlar yaxın zamanlarda ədalət mühakiməsinə çıxarılaraq layiq olduqları cəzanı alacaqlar.

***Nardar BAYRAMLI***



# Birinci vitse-prezident: daha neçə günahsız insan həlak olmalıdır ki...

## Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib

"Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb".

Bu fikirlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda yer alıb.

Paylaşımda deyilir: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq.

Uca Tanrı Vətənimizi qorusun!".

**28 oktyabr 2020-ci il**

# Kosmik sənayemizin qlobal gücü...

## "Azərkosmos" yeni layihələrlə sənaye ixracatçısı kimi mövqeyini gücləndirir

Azərbaycanın Kosmik Agentliyi ("Azərkosmos") ilə İtaliyanın yerüstü idarəetmə üzrə xidmət təminatçısı olan "Leaf Space" şirkəti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədə əsasən, "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin Bakı teleportunda 3,7 metrlik "S/X" diapazonlu anten quraşdırılıb. Yeni qurğu sistemi müxtəlif peyklərdən toplanan kritik məlumatların emalı və ötürülməsini, peyk şəbəkələri arasında nəzarəti, eləcə də kosmosdakı cihazların monitorinqini həyata keçirməyə imkan verəcək.

"Azərkosmos"un kosmik arxitekturasına daxil olan yeni nəsil çoxfunksiyalı teleport Avropa, Asiya və Afrika ölkələrindən olan müştərilərə virtual şəbəkə operatoru, kiçikölçülü anten terminalı, Data və digər rabitə və kosmik xidmətləri daha geniş formada və keyfiyyətlə göstərməyə də imkanlar yaradacaq. Teleportun yerləşdiyi coğrafi məkanın əməliyyat və kommersiya baxımından əlverişli olması yeni və daimi müştərilər üçün ən müasir standartlara uyğun xidmət sistemlərini dayanıqlı şəkildə təmin edəcək.

### İtaliya şirkətinin ikinci kosmik investisiyası...

Qeyd edək ki, İtaliyanın "Leaf Space" şirkətinin "Azərkosmos"un texniki sisteminə daxil etdiyi yeni anten bloku ikinci investisiya aləti olmaqla, ən təkmil və unikal infrastruktur layihəsi hesab edilir. İtalyan şirkəti 2 il əvvəl Bakı teleportunda 3,7 metrlik ilk "S/X" diapazonlu yerüstü anten quraşdırmaqla peyklərarası informasiya mübadiləsinin emalını təmin etmişdi. Yeni quraşdırılan ikinci antenin istismarı sayəsində Azərbaycan üzərindən keçən müxtəlif peyklərdən əldə edilən məlumat bazası daha da genişlənəcək və "Azərkosmos" regionda böyükşəbəkəli informasiya resursu mərkəzinə çevrilərək imkanlarını gücləndirəcək.

Ölkəmizin kosmik brendi olan "Azərkosmos" son illərdə dünya kosmik ailəsinin etibarlı üzvü kimi dünyanın ən qabaqcıl şirkətləri ilə əməkdaşlığı artıraraq yeni nəsil texnologiyaların tətbiqinə nail olmaqdadır.

Bir müddət əvvəl qardaş Türkiyənin "İmpro" şirkəti ilə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Kosmik Agentlik "Göktürk-1" peyki vasitəsilə təsvir və həllərdən istifadəni də əldə edəcək. Türkiyənin yüksək ayırdetmə qabiliyyətinə malik "Göktürk-1" peyki yerin məsafədən müşahidəsini aparan və heç bir coğrafi məhdudiyyət olmadan istənilən nöqtəsindən görüntü əldə etməyə imkan verən nəhəng kosmik şəbəkədir. Peykin təsvirlərindən xəritəçəkmə və planlaşdırma, kənd təsərrüfatı, torpaq örtüyünün tədqiqi, geologiya, ətraf mühitin monitorinqi, fövqəladə halların idarə edilməsi, sahil zonasının idarə edilməsi və su ehtiyatları üzrə müxtəlif proqramların həyata keçirilməsində istifadə olunur. Bu baxımdan, "Göktürk-1" peyki vasitəsilə azad edilmiş ərazilərdə zəruri tədbirlərin, ələxsus da xəritəçəkmə və torpaq islahatları ilə bağlı ərazinin qiymətləndirilməsi və digər məsələləri həll etmək mümkün olacaq.




### Çin və ABŞ-ın kosmik nəhəngləri ilə yeni sazişlər imzalanıb

Bundan başqa, "Azərkosmos" ötən ay Çinin qlobal terminal istehsalçısı olan "StarWin" şirkəti ilə müqavilə imzalayaraq regionda rabitə xidmətlərinin əhatəsini genişləndirmək üçün əlavə peyk resursu bazası qazanıb. Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, müştərilərə ənənəvi rabitə infrastrukturu olmayan uzaq bölgələrdə xidmət göstəriləcək ki, həmin xidmətləri "Azconnexus"- StarWin" peyk internet platforması birlikdə təchiz edəcək. Sözügedən platformanın üstünlüyü hərəkətdə olan nəqliyyat vasitələrində dayanıqlı və kəsintisiz peyk rabitəsini, habelə stasionar halda peyklə əlaqənin qurulmasını təmin etməsidir. Bu infrastrukturun digər üstün xüsusiyyəti fövqəladə hallar və ekstremal hava şəraitləri zamanı çevik yayım üçün çox əlverişli olmasıdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində "Azərkosmos" qlobal peyk operatoru olan "ABS" şirkəti ilə faydalı əlaqələr qurub. Sentyabrın ortalarında Niderlandda keçirilən "IBC 2024" beynəlxalq sərgi-konfransında ABŞ-ın eyniadlı şirkəti ilə imzalanmış sazişə əsasən, milli kosmik şirkətimiz Amerikanın peyk vasitəsilə Nigeriya ərazisində öz müştərilərinə "Pay TV" xidmətini təqdim edəcək. Həmçinin dünyanın ən güclü qlobal peyk operatorlarından biri ilə yaxın tərəfdaşlıq "Azərkosmos"un biznes xətlərini genişləndirməyə, təkcə öz peyk resurslarının satışı ilə deyil, qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması sayəsində də gəlir əldə etməyə imkan verəcək.

Kosmik Agentliyin Millətlər Birliyi Təşkilatının üzvləri olan inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə əməkdaşlığı da cari il ərzində uğurlu layihələrdən hesab edilə bilər. Şirkət Millətlər Birliyinə üzv ölkələrdə iqlim dəyişikliyində kosmik texnologiya və coğrafi məlumatlarla təhlil aparılması, fəaliyyətin qiymətləndirilməsi məqsədilə kompleks proqram hazırlayaraq konsepsiya çərçivəsində Karib dənizi regionunda və Sakit okean ölkələrinin ərazilərində peyk tədqiqatları aparacaq. Tədqiqatlar sayəsində birlik ölkələrində quraqlıq səviyyəsi və riskləri qiymətləndiriləcək ki, bu da qlobal iqlim çağırışlarından irəli gələn hədəflərə xidmət edir.

### 50 ölkənin 200-dən artıq müştərisinə peyk xidmətləri...

Xarici tətrəfdaşlarla birgə layihələrin icrası milli agentliyimizin müştərilərə təqdim etdiyi coğrafi informasiya üzrə xidmətlərin sayının artırılmasına səbəb olmaqla yanaşı, kosmik bazarda xidmət çeşidlərini də genişləndirərək öz kommersiya portfelini böyütməsinə dərin zəmin yaradır. Yeri gəlmişkən, "Azərkosmos" öz maliyyə imkanlarını artıraraq 2024-cü ilin əvvəllərindən ölkəmizin milli ixrac gəlirlərinə də fayda verməyə başlayıb. Əvvəlki illərdə dövlət büdcəsindən dotasiya alan bu qurum artıq özü gəlirverən subyektə çevrilib. Agentlik ötən il 48 ölkəyə 18 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edib və gəlirləri hesabına xərclərini təmin edib. Hazırda Avropa, Afrika, Yaxın Şərq, Mərkəzi Asiya regionlarının 50-dək ölkəsindən 200-dən artıq müştəriyə xidmət göstərərək qlobal və regional peyk xidmətləri bazarında özünəməxsus mövqe qazanaraq Azərbaycan iqtisadiyyatının güclənməsinə, inkişafına töhfə verməyə çalışır.

Ümumilikdə, "Azərkosmos" fəaliyyətə başladığı 10 il ərzində 590 milyon manat gəlir əldə edib. Xidmətlər üzrə gəlirlilik baxımından böyük pay sahibinə malik ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya, Nigeriya və Pakistan ilk sıralarda dayanır.

### "Kosmik iqtisadiyyat" quruculuğu ilə bağlı hədəflər...

Türkiyə, İtaliya, İsrail, Polşa, Braziliya, Macarıstan, Pakistan, Cənubi Afrika Milli Kosmik agentlikləri, Çin Milli Kosmik Administrasiyası, Fransa Milli Kosmik Tədqiqatlar Mərkəzi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə sıx əməkdaşlıq edərək beynəlxalq kosmik koalisiyanın tanınmış üzvlərindən birinə çevrilmiş "Azərkosmos" həm də müasir qlobal çağırışlara uyğun olaraq Dördüncü Sənaye İnqilabının aparıcı liderlərindən birinə çevrilməyi hədəfləyir. Bu strateji plana uyğun olaraq milli agentlik "kosmik iqtisadiyyat" quruculuğuna da xüsusi önəm verərək qlobal şirkətlərlə əməkdaşlıq edir. Məqsəd "kosmik iqtisadiyyat"ın inkişafını və genişləndirilməsini təmin etməkdir. Şirkət, eyni zamanda, müasir iqtisadiyyat quruculuğunun əsas trendlərindən biri olan ətraf mühitin qorunmasına xidmət edən "yaşıl layihələrə" də töhfə verməyi planlaşdırır. Bu strateji prioritetə uyğun olaraq "Azərkosmos" buzlaqların monitorinqinin aparılması, iqlim dəyişikliklərinin Xəzər dənizi və çay hövzələrinə təsirinin qiymətləndirilməsi və digər bu tipli layihələr icra edəcək. Ümumilikdə, agentlik ölkəmizdə və müxtəlif regionlarda kosmik texnologiya və coğrafi məlumatların gücündən istifadə etməklə iqlimə davamlılığın gücləndirilməsi, fəlakətlərə hazırlıq riskləri üzrə strategiyaların təkmilləşdirilməsi və davamlı inkişafı dəstəkləyən ekoloji təhlillərin aparılması üzrə fəaliyyətini artırmaq niyyətindədir.

Beləliklə, "Azərkosmos" ölkəmizdə müasir kosmik aparatların istehsalı mərkəzinin qurulması və peyk hazırlanması ilə bağlı tədbirləri davam etdirilir ki, bu prioritet istiqamətlərin gerçəkləşməsi sayəsində Azərbaycan peyk məhsulları ilə yanaşı, kosmik sənaye ixracatçısı kimi dünyada mövqeyini artıracaq.

***E.CƏFƏRLİ***

# Hüquqi və tarixi saxtakarlıqla dolu "sənəd"...

## İtaliya XİN rəsmisi: Avropa Parlamentinin qəbul etdiyi qətnamə, şübhəsiz ki, sülh müqaviləsinin tezliklə imzalanmasına kömək etmir

Erməni lobbisinin yuvasına çevrilmiş Avropa Parlamenti (AP) COP29 ərəfində ölkəmizə qarşı qərəzini və düşmənçilik mövqeyini daha da gücləndirir. Bu təşkilat dövlətimizin ərazilərini işğaldan azad etməsini, Qarabağ ərazisində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir. Bu səbəbdəndir ki, Avropa Parlamentində Vətən müharibəsindən sonra Azərbaycanla bağlı əsassız müzakirələr və qəbul olunan "sənədlərin" sayı xeyli artıb.

Oktyabrın 22-də Avropa Parlamentində növbəti dəfə "Azərbaycanda siyasi vəziyyət və insan haqları məsələləri", eləcə də Azərbaycan və Ermənistan münasibətlərinə dair müzakirələrin aparılması təşkilatın ölkəmizə qərəzinin daha bir göstəricisidir. Təşkilatın bu müzakirələrlə "ürəyi soyumayaraq" oktyabrın 24-də "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnamə də qəbul edib. Qətnamədə BMT-nin İqlim Dəyişikliyi üzrə 29-cu konfransı (COP29) ərəfəsində Azərbaycanda guya ictimai fəallara, jurnalistlərə, müxalifət rəhbərlərinə qarşı "təzyiqlərin artdığı" iddia olunur.

### Yalan üzərində qurulmuş "sənəd"

Avropa Parlamenti qəbul etdiyi "sənəd"də onu da iddia edir ki, guya "Azərbaycanda davam edən insan hüquqları pozuntuları ölkənin COP29-a ev sahibliyi etməsi ilə bir araya sığmır". Və bunu "nəzərə alaraq" təşkilat Aİ liderlərini, xüsusən də Avropa Komissiyasının prezidenti Ursula fon der Leyeni konfransdan istifadə edərək "Azərbaycana beynəlxalq öhdəliklərini xatırlatmaq və Azərbaycan hakimiyyəti ilə təmaslarında insan haqlarının vəziyyətinə toxunmağa" çağırıb. Nə qədər absurd olsa da, Avropa Parlamenti Ermənistana qarşı hər hansı hərbi əməliyyatın Azərbaycanın Aİ ilə münasibətlərinə zərər verəcəyi barədə ölkəmizə "xəbərdarlıq" etməyi də "unutmayıb".

Ümumiyyətlə, Avropa Parlamentinin qəbul etdiyi bu qətnamə də digərləri kimi cəfəngiyyatdan başqa bir şey deyil. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçı siyasətini pisləyən qətnamələr qəbul etməyib, əksinə "insan hüquqları" bəhanəsi ilə Azərbaycana qarşı çıxışlar edib. Ötən ilin oktyabr ayında isə bu qurumda işğalçı Ermənistanın baş nazirinin yüksək səviyyədə qarşılanması isə əsl gerçəklikləri ortaya qoymuş oldu. Hansı ki, Paşinyan məhz 44 günlük müharibə zamanı ermənilər tərəfindən Gəncədə törədilmiş terror hadisəsinin ildönümü zamanı - 17 oktyabr tarixində çıxış etmişdi. Yəqin ki, bu təsadüf deyil, Avropa Parlamenti ilə Ermənistanın düşünülmüş addımı idi. Bu faktlar göstəri ki, Avropa Parlamenti bu müharibə cinayətlərini törətmiş Ermənistanla həmrəydir.

### AP cinayətkarları "hərbi əsir" kimi qələmə verir

Qətnaməyə münasibət bildirən Milli Məclisin bəyan etdiyi kimi, bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür: "Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə açıq şəkildə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Eyni zamanda, Ermənistana xüsusi nəvaziş nümayiş etdirilir, onun silahlandırılması təşviq olunur, bununla da həmin ölkədə revanşist meyillərin gücləndirilməsinə və regionda yenidən münaqişənin alovlandırılmasına ciddi təşəbbüs göstərilir". Qətnamədə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtması, qərbi azərbaycanlıların haqlı tələbləri, ərazilərimizin Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minalardan təmizlənməsi, itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyi haqda bir ifadə belə yoxdur. Bu da həmin sənədin nə dərəcədə qərəzli və birtərəfli olmasını bariz şəkildə göstərir. Əlləri Azərbaycan xalqının qanına bulaşmış, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin hərbi əsir kimi qələmə verilməsi isə ən azı hiddət doğurur. Ölkəmizin qlobal və regional səviyyədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunması naminə irəli sürdüyü təşəbbüslərə, göstərdiyi səylərə qərəzli münasibət də diqqətdən yayınmır. Avropalı parlamentarilər hətta iqlim dəyişmələri ilə bağlı mühüm bir məsələni siyasiləşdirərək, Azərbaycana qarşı ittiham aləti kimi istifadə etməkdən belə çəkinmirlər.



### Qərbi Azərbaycan İcması AP-nin qətnaməsini sərt tənqid edib

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması da bəyanat verib. Bəyanatda bildirilib ki, tarixən xarici işğal, etnik təmizləmə, mədəni irsin dağıdılmasından əziyyət çəkmiş Qərbi azərbaycanlılar və bütövlükdə Azərbaycan xalqı üçün beynəlxalq humanitar hüquqa və insan hüquqlarına hörmətin təmin edilməsi böyük əhəmiyyət kəsb edir: "Müxtəlif dövrlərdə Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış milyonlarla Qərbi azərbaycanlı üçün qayıdış hüququ xüsusilə ümdə və müqəddəs vəzifə təşkil edir. Qüvvədə olan beynəlxalq konvensiyalar iştirakçı dövlətlərin üzərinə Azərbaycan xalqına qarşı törədilən sistematik hüquq pozuntuları ilə bağlı konkret öhdəlik qoysa da, onların bir çoxu, ələlxüsus Qərb ölkələri, bu məsələyə biganə yanaşmışlar. Onlar nəinki bu hüquq pozuntularına göz yummuş, hətta Ermənistanı işğal və etnik təmizləmə kimi bədnam əməllərini davam etdirməyə cəsarətləndirmiş və regionda sülhün bərqərar olmasına həmişə əngəl törətmişlər".

Vurğulanıb ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə regionda dayanıqlı sülh üçün perspektivlərin ortaya çıxmasından narahat olan sözügedən qüvvələr öz pozucu əməllərini daha da fəallaşdırıb: "Daha çox parlament xətti ilə həyata keçirilən bu bədnam fəaliyyətlərdə ABŞ Konqresi, Avropa Parlamenti, Fransa, Niderland və digər dövlətlərin parlamentləri xüsusilə canfəşanlıq edirlər. Onilliklər ərzində azərbaycanlıların Ermənistan ərazisindən və vaxtilə işğal edilmiş Azərbaycan ərazilərindən etnik təmizləməyə məruz qalmasına, onların qayıdışına imkan verilməməsinə, mədəni irsinin sistematik şəkildə dağıdılmasına dəstək verən həmin ikiüzlü qüvvələr bütün bu əməllərin qurbanı olmuş Azərbaycana qarşı olmazın ittihamlar irəli sürürlər".

İcmanın bəyanatında qeyd edilib ki, Avropa Parlamentinin 2024-cü il oktyabrın 24-də qəbul etdiyi növbəti bədnam qətnamə bu qəbildəndir. Avropa Parlamenti bu qətnamə ilə məlum dairələrin Azərbaycana qarşı COP29 ərəfəsində intensivləşən qarayaxma kampaniyasına öz "töhfəsini" vermiş olur. "Xatırladaq ki, 1988-ci ildə keçmiş "DQMV"-nin Ermənistan SSR-ə verilməsinə dair çağırış etmiş Avropa Parlamenti ötən müddət ərzində Azərbaycan xalqına qarşı düşmənçiliyini institusional səviyyəyə gətirib və Azərbaycan əleyhinə nifrət və böhtanla dolu, beynəlxalq hüquqa zidd onlarla sənəd qəbul edib. Azərbaycan və Ermənistan liderlərinin Kazanda görüşdüyü gündə Avropa Parlamenti tərəfindən belə bir sənədin qəbul edilməsi gülüncdür. Müzakirələrdə sanki bir-biri ilə yarışa çıxan, xüsusən Fransadan olan səlibçi mentalitetli deputatların fikirləri ikrah doğurur", - deyə, bəyanatda vurğulanıb.

Qərbi Azərbaycan İcması Avropa Parlamentinin və qeyrilərinin Azərbaycan xalqına qarşı etnik və dini əsasda ayrı-seçkilik aparan, bölgədə yenidən münaqişəni yaratmağa xidmət edən cəhdlərini və bu mənfur əməllərinə "insan hüquqlarının müdafiəsi" donu geyindirmək cəhdlərini sərt şəkildə qınayıb. Həmçinin, sözügedən ünsürlərin anti-Azərbaycan siyasətini, insan hüquqlarından öz siyasi gündəliklərini irəlilətmək cəhdlərini bundan sonra da ifşa etməkdə davam edəcəyini bəyan edib.

### Çirelli: Mən bütün dediklərimdən əminəm

Yeri gəlmişkən, Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qərəzli sənəd Avropa İttifaqına üzv olan bəzi ölkələr tərəfindən də etirazla qarşılanır. Belə ki, İtaliya xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini, İtaliya Nazirlər Şurasında Qafqaz bölgəsinə məsul şəxs, habelə İtaliyanın hakim "İtaliya Qardaşları" partiyasının milli direktorluğunun əlaqələndiricisi Edmondo Çirelli Avropa Parlamentində oktyabrın 24-də Azərbaycana qarşı qəbul olunmuş qətnaməni sərt şəkildə tənqid edib. Edmondo Çirelli bununla bağlı bildirib: "Mənim siyasi partiyamın haqlı olaraq bitərəf qaldığı Avropa Parlamentinin Azərbaycana qarşı qətnaməsini təəccüblə qarşıladım. Parlament suverendir, lakin bu o demək deyil ki, hökumət nümayəndələri öz fikirlərini ifadə edə bilməzlər, biz demokratik ölkələrik". "Əvvəla, qətnamə hüquqi və tarixi saxtakarlıqla doludur. Məhz Ermənistan qeyri-qanuni (BMT tərəfindən pislənmiş) olaraq otuz il ərzində nəinki "Dağlıq Qarabağ"ı, həm də ondan iki dəfə böyük olan və yalnız azərbaycanlıların yaşadıqları ərazini işğal etmişdi. BMT-nin müstəqil hesabatlarından da göründüyü kimi, ermənilərin regionu tərk etmələrinə görə məsuliyyət daşıyan Azərbaycan deyil, bu, regionun erməni separatçı rəhbərliyinə havadarlıq edən rusiyapərəstlərin ritorikasıdır. Halbuki, beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınan həmin bölgədə yaşayan erməniləri qorumaq bəhanəsi ilə Ermənistanın başlatdığı müharibə nəticəsində 750 mindən çox azərbaycanlı öz torpaqlarından didərgin düşməyə məcbur olub. Azərbaycanlılar hələ də öz torpaqlarına qayıda bilmirlər, çünki onların şəhərləri yerləyeksan edilib və hər yer hələ də minalanmış vəziyyətdədir", - deyə "İtaliya Qardaşları" partiyasının nüfuzlu üzvü olan nazir müavini vurğulayıb.

Diplomat əlavə edib: "Ermənistan ərazisində Azərbaycan qoşunları yoxdur. Üstəlik, onilliklər ərzində ermənilər qanunsuz şəkildə işğal etdikləri Azərbaycanın dörd kəndini də geri qaytardılar. Mübahisəli ərazilər yoxdur, çünki Ermənistanın özü də bunu bəyan edib: yalnız azərbaycanlıların qaldırdığı məsələ var ki, o da Ermənistan konstitusiyasında olan revanşizm kimi başa düşülən müddəalardır. Avropa Parlamentinin qəbul etdiyi qətnamə, şübhəsiz ki, sülh müqaviləsinin tezliklə imzalanmasına kömək etmir". "Azərbaycan geosiyasi nöqteyi-nəzərdən təkcə İtaliya və Aİ-nin enerji və iqtisadi baxımdan deyil, həm də siyasi müstəvidə strateji tərəfdaşıdır. Mən bütün dediklərimdən əminəm, çünki nazir Tayaninin təklifi ilə xarici işlər naziri qismində Qafqaz bölgəsi mənim vəzifə səlahiyyətlərimə aid ediləndən sonra, dəfələrlə bütün bölgə ölkələrinə səfər etmişəm və bölgənin hər üç ölkəsindən İtaliyada çoxsaylı nümayəndə heyətlərini qəbul etmişəm",- deyə Çirelli vurğulayıb.

***Nardar BAYRAMLI***

# Demokratiyanın mühüm göstəricisi!

## Söz azadlığı təmin olunan ölkələr daim öndədir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Fikir, söz və məlumat azadlıqları hər bir ölkədə mətbuatdan başlayır. Çünki, mətbuat dövrün gerçək təsvirini vermək kimi mühüm bir missiyanı yerinə yetirir. Bu baxımdan mətbuat cəmiyyəti olduğu kimi təsvir edən bir güzgüdür. Həmin güzgü cəmiyyətin bütün həqiqətlərini özündə əks etdirir. Mətbuatın tərəfsiz olaraq cəmiyyətə xidmət etməsi isə bu güzgünün şəffaflığını, nəticədə cəmiyyətin fikir, söz və məlumat azadlığını şərtləndirir.

Plüralist cəmiyyətin yetişməsi üçün fikir, söz, məlumat azadlığı kimi insan azadlıqlarının nə qədər vacib məsələ olduğu şübhə belə doğura bilməz. Belə ki, daim tərəqqiyə can atan insan fikir, söz, məlumat azadlığı olmadan tərəqqiyə nail ola bilməz. Bu baxımdan söz azadlığı təmin olunan hər bir ölkədə demokratik prinsiplərə əməl edilir.

**Qapalı cəmiyyətlər inkişafdan geri qalır...**

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Bəhruz Məhərrəmov: "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, söz və mətbuat azadlığı, fikir plüralizmi açıq cəmiyyət quruculuğunun prioritet məsələlərindən biri, demokratiyanın göstəricisidir: "Biz açıq cəmiyyət qurmaq, vətəndaşın dövlətin həyatındakı rolunu artırmaq istəyiriksə, mütləq söz və mətbuat azadlığını təmin etməli, fikir müxtəlifliyinə nail olmalıyıq. Demokratik təsisatların inkişaf etməsinin qeydinə qalmalıyıq. Çünki şəffaf cəmiyyət quruculuğu, açıq və ədalətli mübarizə mühitinin inkişafını təmin edir, yeni hədəflərin, ideyaların ortaya çıxmasına səbəb olur. Qapalı cəmiyyətlər isə hər zaman inkişafdan geri qalıb. Fikir azadlığı və demokratiya olmayan, hamının eyni cür düşünməyə məhkum edildiyi ölkələr müxtəlif kriteriyalar üzrə rəqabətdə azad və demokratik dövlətlərə uduzurlar. Azərbaycan söz və mətbuat azadlığının inkişafının qayğısına qalan, ən azından bu istiqamətdə iradə nümayiş etdirməyə çalışan ölkələrdəndir".

**Ölkəmizdə plüralizmi məhdudlaşdıran heç nə yoxdur**

Deputat ölkəmizin hələ 1991-ci ildə Müstəqillik Bəyannaməsində demokratik dövlət, hüququn aliliyi, söz azadlığını dəyişməz bir prinsip kimi qarşısına məqsəd qoyduğunu elan edib: "Azər-




baycan demokratiya yolu ilə gedən dövlətdir. Həmçinin 1995-ci ildə qəbul edilən Konstitusiyada söz azadlığı, plüralizm, insan hüquqlarının müdafiəsi və qorunması, vicdan azadlığı, qadın və kişilərin bərabərhüquqlu olması məsələsi açıq-aydın öz əksini tapıb. Sonradan keçirilən referendumlarda da bununla bağlı təkmilləşmələr aparılıb. Qanunvericilikdə söz azadlığı, plüralizmlə bağlı kifayət qədər maddələr var. Bu gün ölkəmizdə plüralizmi məhdudlaşdıran heç nə yoxdur. Azərbaycanda sərbəst toplaşmaq, söz azadlığı haqqında qanunlar yüksək səviyyədə təsbit olunub. Bununla bağlı qəbul edilən qanunların hər biri beynəlxalq ekspertlər tərəfindən nəzərdən keçirilib. Dövlətimiz, eləcə də Milli Məclis yeni qanunların qəbul edilməsinə, mövcud qanunvericiliyin təkmilləşdirilməsinə maraqlıdır. Bu, prioritet məsələlərimizdən biridir. Ölkəmizdə hazırda söz azadlığını, plüralizmin inkişafını ləngidən, problem yaradan hər hansı məsələ varsa, parlament bu məsələnin qaldırılmasına müsbət yanaşır. Belə də olmalıdır, çünki cəmiyyət inkişaf etdikcə ictimai münasibətlərdə də müəyyən tənzimləmələrə zərurət yaranır".

**Azərbaycanda söz azadlığı üçün hər bir tədbir görülür**

B.Məhərrəmov qeyd edib ki, plüralizm, söz, fikir və məlumat azadlığı Azərbaycan qanunları ilə tənzimlənir: "Azərbaycan dövləti hər zaman mətbuat azadlığı, aşkarlıq, şəffaflıq istiqamətində tədbirlər görür, qanunlar qəbul olunur. Azərbaycanda bu qədər QHT-lərin, saytların, Kütləvi İnformasiya Vasitələrinin mövcud olması özü elə media, söz azadlığıdır. Bu istiqamətdə Azərbaycanda heç bir problem və məhdudiyyətlər yoxdur. Ona görə də bu məsələlərlə bağlı müvafiq qanunlara əməl edilməsi vacibdir".

**Demokratiyanın mühüm vasitəsi...**

Millət vəkilinin sözlərinə görə, Azərbaycan söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdəndir: "Ölkəmizdə azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsi demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Kütləvi İnformasiya Vasitələri cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin mühüm tərkib hissəsidir. KİV cəmiyyətdə ictimai fikri, dövlətə inamı və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada KİV-lər dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi sayılır. Bu gün ölkəmizdə medianın azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülür. Azərbaycan söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdən hesab edilir".

*Yeganə BAYRAMOVA*

# Ekoloji təmiz dəmir yolu sistemi qurulur

Qlobal iqlim böhranı və artan ekoloji tələblər kontekstində dayanıqlı nəqliyyat sisteminin yaradılması hazırda dünya ölkələri qarşısında duran vacib çağırışlardan biridir. Hazırda dünya üzrə karbon qazı emissiyasının 24 faizi nəqliyyat sisteminin payına düşür. Ona görə də, nəqliyyatın dekarbonizasiyası COP alyansının da əsas diqqət mərkəzində dayanır. Son illərdə qlobal iqlim ailəsi bərpa edilən enerji mənbələrinə keçid çərçivəsində nəqliyyatın da alternativ yanacaq növlərindən istifadəsini təşviq edən strateji həll planları hazırlayaraq icra etməkdədir.

Ekoloji təmiz nəqliyyat infrastrukturunun yaradılması təşəbbüsləri Azərbaycanın gündəliyində başlıca yer tutur. Ötən dövr ərzində ekoloji cəhətdən təmiz avtonəqliyyat vasitələrinin istifadəsinin stimullaşdırılması, avtomobil parkının "yaşıllaşdırılması", elektrik mühərriki ilə işləyən avtomobillərin sayının kəskin artırılması məqsədilə vergi-gömrük tətilləri tətbiq olunub. Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, 2019-cu ilin 1 yanvar tarixindən yalnız elektromobillərin idxalı əlavə dəyər vergisindən azad olunub. Həmçinin dövlət başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən 5-ci - təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"nə keçidin təmin edilməsidir. Milli Prioritetə uyğun olaraq Vergi Məcəlləsinə müvafiq dəyişikliklər aparılıb və 2022-ci ilin 1 yanvar tarixindən yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışı da əlavə dəyər vergisindən azad edilib. Həmçinin elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad olunub.

Həmçinin gömrük qanunvericiliyinə edilmiş dəyişikliyə əsasən, 2023-cü il yanvarın 1-dən etibarən elektrik mühərrikli minik avtomobillərinə tətbiq edilən 15 faiz idxal gömrük rüsumu endirilib. 2025-ci il yanvarın 1-dən isə elektrik avtomobilləri üçün enerji doldurucularının idxalı və satışı əlavə dəyər vergisindən azad olunacaq.

## Dəmir yolunun "yaşıllaşdırılması"...

Karbon emissiyasının azaldılması tədbirləri çərçivəsində hədəf prioritetlərdən biri də ölkəmizin dəmir yolu nəqliyyatının "yaşıllaşdırılmasıdır". "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov "Gələcək üçün dayanıqlı nəqliyyat" tədbirində çıxışı zamanı bildirib ki, dəmir yolu dayanıqlığının birinci və ən mühüm aspekti emissiyaların azaldılması, enerji səmərəliliyidir.

Dəmir yolu nəqliyyatı digər nəqliyyat vasitələri ilə müqayisədə xeyli az karbon emissiya edir və ekoloji təmiz nəqliyyat vasitəsi hesab edilir. Belə ki, sərnişin qatarı hər kilometrə 14 qram karbon buraxdığı halda, digər nəqliyyat növləri bundan 10-20 dəfə çox karbon qazı emissiya edir. Bundan əlavə, dəmir yolu infrastrukturunun inkişafı nəqliyyat sıxlığını azaltmağa kömək edir ki, bu da öz növbəsində karbon qazı tullantılarının azaldılmasına gətirib çıxarır. Ölkəmizdə dəmir yolu nəqliyyatının payı ümumi enerji istehlakının 0,12 faizi və istilik effekti yaradan qazların emissiyasının 0,5 faizdən az hissəsi düşür. Ümumilikdə isə Azərbaycanın dəmir yolu nəqliyyatının qlobal emissiyada payı 0,1 faizdir. Ancaq buna baxmayaraq, qlobal iqlim alyansının fəal üzvü olan Azərbaycan öz nəqliyyat infrastrukturlarını "yaşıllaşdırır" və nəqliyyatın bütün seqmentlərində karbon emissiyalarını minimallaşdırmağa çalışır. Məhz bu strategiyaya əsasən, aşağı karbonlu neytral dəmir yolu nəqliyyat sistemi qurulması hədəflənib.

## Rəqəmsal dəmir yoluna transformasiya...

Dəmir yolu nəqliyyatı "yaşıl hədəf"lərə uyğun olaraq infrastrukturların rəqəmsallaşdırılmasını da vacib hesab edir və elektrikləşmənin 100 faizə çatdırmaq hədəfi bu strateji planın tərkib hissəsidir. Hazırda dəmir yolunda bu göstərici 63 faiz təşkil edir. Eyni zamanda, nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması qarşıda duran əsas çağırışlardandır. Rəqəmsallaşma müasir İT imkanlarından istifadə etməklə məlumatların daha dəqiqliyi, müştərilərin vaxtına qənaət edilməsi, ölkələrarası inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, qatarların onlayn izlənilməsi və s. kimi funksionallığa şərait yaradır. Həmçinin əməliyyat səmərəliliyinin, rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyət kəsb edir. Qabaqcıl rəqəmsal texnologiyalardan istifadə həm də dəmir yolu nəqliyyatında kibertəhlükəsizliyin yüksək səviyyədə təmin olunması baxımından da xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan dəmir yolunda rəqəmsal transformasiyaya keçid üzrə tədbirlər də icra olunacaq.

## Asiya Bankından "yaşıl nəqliyyat" layihələrinə dəstək



Azərbaycanın dəmir yolu sektorunda dekorbanizasiya ilə bağlı təşəbbüslər uzunmüddətli dövrü əhatə edir və bu sahədə ölkəmizin əsas tərəfdaşlarından biri Asiya İnkişaf Bankıdır (AİB). Bank ötən müddətdə dəmir yolu infrastrukturunun müasirləşdirilməsində aparıcı donor olub. AİB Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün ölkəmizə 150 milyon dollar kredit ayırıb, layihənin başa çatdırılması üçün əlavə tələb olunan 131,5 milyon dollar məbləğində maliyyələşməni təmin edib. Bununla yanaşı, dəmir yolu sektorunun maliyyə davamlılığının artırılması üzrə həyata keçirilən islahatların dəstəklənməsi məqsədilə 2017-ci ildə bank tərəfindən "Dəmir yolu sektorunun inkişafı proqramı" çərçivəsində 250 milyon dollar məbləğində kredit vəsaitləri ayrılıb.

Oktyabrın 23-də Bakıda keçirilən "Gələcək üçün dayanıqlı nəqliyyat" tədbirində ADY və Asiya Bankı arasında dekarbonizasiya üzrə əməkdaşlığa dair memorandum imzalanıb ki, bu da "yaşıl maliyyə" əməkdaşlığının ilk addımlarından biri hesab edilə bilər. Ümumilikdə, AİB qarşıdakı dövrdə Azərbaycanda daha çox ekoloji tipli layihələrə kredit yönəldəcək ki, onların sırasında nəqliyyat sektoru, o cümlədən dəmir yolu xüsusi yer tutur. 2024-2026-cı illər ərzində AİB-lə Azərbaycan arasında əməkdaşlıq əsasən, bərpaolunan enerji və "yaşıl nəqliyyat" sahələrinə yeni maliyyə transı ayrılacaq ki, "Şimal-Cənub" və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda infrastrukturların rəqəmsallaşdırılması və "yaşıl nəqliyyat" prinsiplərinə uyğunlaşdırılması həyata keçiriləcək.

*E.CƏFƏRLİ*

# Gürcüstan üçün seçim anı

**Bu gün Gürcüstanda parlament seçkiləri keçirilir. Bu, qonşu və dost ölkə üçün sıradan bir seçki yox, sözün əsl mənasında seçim anıdır. Məsələ burasındadır ki, Gürcüstan bu seçkilərə Qərbin artan təzyiqləri və təhdidləri şəraitində gedir. Amerika Birləşmiş Ştatları (ABŞ), Avropa İttifaqı (Aİ) ölkəni Cənubi Qafqazda Rusiyaya qarşı Ermənistandan sonra ikinci plasdarm dövlətə çevirməyə, burada öz mövcudluğunu maksimum səviyyədə gücləndirməyə çalışır. Gürcüstan hakimiyyəti isə belə təzyiqləri qəbul etməyərək milli maraqları və suverenlik prinsiplərini önə çəkir. Bu reallıq fonundda parlament seçkilərinin də sərt rəqabət şəraitində keçəcəyi gözlənilir.**

## 19 partiyanın qatıldığı seçkilər

Budəfəki parlament seçkisinə 19 partiya qatılıb.150 yerlik parlament proporsional üsulla (partiya siyahıları üzrə) seçilir. Qanunverici orqana düşmək üçün etibarlı səslərin azı 5 faizini toplamaq tələb olunur. Hökuməti qanunverici orqanda azı 76 mandata malik partiya formalaşdırır. 2012, 2016 və 2020-ci illərin parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası qalib gələrək hökumət qurub.

Növbəti seçkilərin favoriti də hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası hesab olunur. Bunu seçkiöncəsi keçirilən rəy sorğularının nəticələri də təsdiqləyir. Ölkədə seçkiöncəsi aparılan rəy sorğularına əsasən, hakim komanda ictimai rəydə daha çox üstünlüyə malikdir. Bir qədər bundan əvvəl ictimai rəy üzrə ixtisaslaşan GORBİ Beynəlxalq Tədqiqat Mərkəzi Gürcüstanda keçirdiyi seçki sorğusunun nəticələrini açıqlayıb. Hesabata görə, 18-30 sentyabr arası 1700 nəfər arasında aparılmış sorğuda hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası önə çıxıb: Respondentlərin 59,5 faizi oktyabrın 26-na təyin olunmuş parlament seçkisində bu partiaya səs verəcəyini bəyan edib.Vurğulayaq ki, "Gürcü Arzusu" seçki marafonuna "Xalqın Gücü" Partiyası ilə birlikdə qatılıb.

Üç müxalifət partiyasını birləşdirən "Birlik - Milli Hərəkat" koalisiyası 13,6 faiz səslə göstərilir. Bu koalisiyada əsas qurum sabiq prezident Mixail Saakaşviliyə bağlı "Vahid Milli Hərəkat" Partiyasıdır.

"Yeniliklər" koalisiyasına respondentlərin 10,3 faizi dəstək ifadə edib. Bu koalisiyaya "Vahid Milli Hərəkat" Partiyasının sabiq üzvlərinin yaratdığı üç müxalif partiya daxildir.

Qalan seçki iştirakçılarının heç birinin 5 faizlik baryeri aşmadığı bildirilir.

Seçkiöncəsi mərhələdə ictimai rəydə üstünlük qazanan hakim partiyanın təmsilçiləri qələbə çalacaqlarına dərin inam ifadə edirlər. "Bu gün Qərbin və xüsusən də Qlobal Müharibə Partiyasının Gürcüstana qarşı şantajı heç bir nəticə vermədi. Onların yalan və obyektivlikdən uzaq bəyanatları xalqda onlara qarşı qıcıq yaratdı. Vəziyyət onların əleyhinə dəyişdi". Bu sözləri "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili qərbli tərəfdaşların Gürcüstanda demokratiyanın geri çəkilməsi barədə bəyanatlarını şərh edərkən söyləyib.



"Cəmiyyət düzgün olmayan və çox vaxt obyektivlik çərçivəsindən kənara çıxan bu cür bəyanatlardan daha da qıcıqlanır. Bizdə əsl demokratiya var", - deyə B.İvanişvili vurğulayıb.

O deyib: "Mən "Gürcü Arzusu"nun parlament seçkilərində uğur qazanacağına əminəm. Lakin, bu seçkilərdən sonra ölkəni çətin günlər gözləyir. Çünki Qərbdən olan tərəfdaşlar "ikinci cəbhə" açmaq üçün yenidən Gürcüstanı müharibəyə sürükləməyə çalışacaqlar".

## 2020-ci il ssenarisi təkrarlana bilərmi?

"Parlament seçkilərindən bir gün sonra 2020-ci il ssenarisi təkrarlana bilər. Aparılan müşahidələr belə deməyə əsas verir".

Bu sözləri Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili dünən "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının mərkəzi qərargahında keçirdiyi brifinqdə söyləyib.

Spikerin 2020-ci il ssenarisini xatırlatması təsadüfi deyil. Onun sözlərinə görə, o zaman QHT-lərin və müxalifətin birgə fəaliyyəti ilə qeyri-demokratik yollarla hakimiyyətin dəyişdirilməsinə cəhd olunmuşdu: "Biz bu gün 27 oktyabr üçün hazırlıqların olduğunu göstərən əlamətləri görürük. Buna, bir tərəfdən, qeyri-hökumət təşkilatlarının partiyalaşması, digər tərəfdən isə müxalifətin seçki kampaniyası aparmaması ilə bağlı faktlar işarə edir".

Parlamentin sədri əlavə edib ki, 2020-ci il ssenarisinin təkrarı hazırlanır: "Buna görə də sabah (bu gün - red.) hər kəsin seçkilərə gəlməsi və bu xəyanət ssenarisinə yox deməsi vacibdir. Bizim əsas gücümüz xalqdadır. Hər kəs "Gürcü Arzusu-Demokratik Gürcüstan"a dəstək olmalı və bununla da bizim təmin etdiyimiz sülhə dəstək verməlidir. Müxalifət, bir qrup qeyri-hökumət təşkilatı və bəzi xarici qüvvələr bizi ölkənin dağıdılmasına yönəltməyə çalışsalar da, bu istiqamətdə bir santimetr belə geri çəkilmədik. Biz həm sülhü, həm də iqtisadi artımı qoruyub saxladıq".

## Seçkilərin nəticələri noyabrın 21-də açıqlanacaq

Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) oktyabrın 26-da keçirilən parlament seçkilərinin yekun nəticələrini noyabrın 21-də açıqlayacaq.

Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyası məlumat yayıb. Bildirilir ki, MSK seçkilərdən ən geci 26 gün sonra dairə və məntəqə komissiyalarının protokolları və məhkəmənin yekun qərarları əsasında özünün yekun protokolunu dərc edəcək. Seçkilərin yekunu elan olunduqdan iki gün sonra MSK seçilmiş deputatları qeydiyyata alacaq və onlara müvəqqəti vəsiqə verəcək.

*MÜBARİZ*

# Korrupsiya girdabında boğulan AP

## Erməni lobbisinin Azərbaycana qarşı istifadə etdiyi “muzdlu dəstə”

Beynəlxalq hüququ, ədalət prinsiplərini unudaraq Azərbaycana qarşı qərəz və yalan müstəvisindən çıxış edən Avropa Parlamenti yenə də öz ampluasındadır. Korrupsioner mahiyyətinə uyğun olaraq erməni lobbisinin “arxa bağçası” kimi çıxış edən Avroparlamentin bu dəfəki anti-Azərbaycan ritorikasında da ənənəvi ştrixlər sezilir:

- Beynəlxalq hüquqla səsləşməyən “ittiham və tələblər”;

- Mövzunun mahiyyətindən bixəbər şəkildə erməni lobbisinin təhriki və maliyyə dəstəyi ilə danışan “dillər”;

- Sanksiyalaşdırmanı özünün monopolist “icra mexanizmi” saymaları.

Erməni işğalının davam etdiyi 30 il ərzində bir dəfə də olsun Ermənistana qarşı konkret olaraq işğala, soyqırımlarına, separatizmə və bu kimi cinayətlərə görə bir dəfə sanksiya tələb etməyi ağlından belə keçirməyən Avroparlament Azərbaycanın haqq-ədalət, sülh uğrunda mübarizəsinə mane olmaq üçün bütün cildlərə girir...

### Federal prokurorluq cinayət işi açdı...

Adı illərdir ki, müxtəlif korrupsiya qalmaqallarından əskik olmayan Avroparlament nə üçün özünün rəsmiləri, təmsilçiləri və ya üzvləri haqda “sanksiyalar” tətbiq etmir, qətnamələr hazırlamırlar? Axı, bu insanların korrupsioner hərəkətləri barədə faktlar saymaqla bitməz. Hər rübdə Avroparlamentin hansısa bir nümayəndəsinin yeni “pəstahası” ilə qarşılaşmaq artıq ənənəyə çevrilib. Cəmisi 4-5 ay öncə Belçika federal prokurorluğu Avropa Parlamentində Brüsseldəki iqamətgahında, eləcədə Strasburq və Brüsseldəki ofislərində axtarış aparmamışdımı? Həmin vaxt Avroparlamentin üzvlərinin bir sıra ölkələrin xeyrinə təbilğat aparmaq üçün rüşvət aldıqları ortaya çıxmışdı.

### Eva Kaili qalmaqalı, Metsolanın “şərab keyfi”...

2022-ci ilin dekabrında AP daha ağır korrupsiya faktı ilə üz-üzə qalmalı oldu - Belçika polisi AP-də fəaliyyət göstərən korrupsiya şəbəkəsini ifşa edərək onun bir neçə üzvünü həbs etdi. Saxlanılanlar arasında AP-nin vitse-prezidenti, yunanıstanlı deputat Eva Kaili də vardı. Belçikanın federal müstəntiqləri Kaili də daxil olmaqla, saxlanılanları rüşvət qismində külli miqdarda pul və müxtəlif bahalı hədiyyələr almaqla körfəz ölkələrindən birinin (Qərb mediası daha sonra bu ölkənin Qətər olduğunu açıqladı) xeyrinə qanunsuz lobbiçilik etməkdə, AP-də qəbul edilən qərarlara təsir etməyə çalışmaqda ittiham etdi. İşlə əlaqədar Brüsseldəki 16 müxtəlif nöqtədə həyata keçirilmiş axtarışlar nəticəsində 600 min avro nağd pul aşkarlandı. Bir həftə ərzində aparılan axtarışlar zamanı isə çamadan və portfellərdə 1,5 milyon avrodan çox nağd pul tapıldı. Müstəntiqlər bildirdilər ki, sözügedən korrupsiya şəbəkəsi bir neçə aydır, həmin Körfəz ölkəsinin xeyrinə AP-nin müxtəlif iqtisadi və siyasi qərarlarına təsir etməyə çalışıb.

2023-cü ilin əvvəlində isə AP ilə bağlı daha bir fakt üzə çıxdı - belə ki, Avropa Parlamenti spikerinin vəzifələrindən biri bu təşkilatın üzvlərinin bahalı otellərdə, dəbdəbəli restoranlarda keçirdikləri vaxt, təyyarələrdə biznes-salonlarda uçuşlar, şou proqramlarına və idman yarışlarına VIP-lojalarda tamaşa etmək xərclərinin kənar şəxslər tərəfindən ödənilməsi barədə təhqiqat aparmaq və bu barədə hesabatlar təqdim etməmiş Avroparlament deputatlarının cəzalandırılması haqda qərar qəbul etməkdən ibarətdir. Almaniya mediasının məlumatında isə bildirilirdi ki, AP rəsmisi olan Roberta Metsola əri ilə birlikdə Fransanın təmtəraqlı otelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumat verməyib. Bu barədə söz-söhbət çox olsa da, nəticədə spikerə heç bir sanksiya tətbiq edilmədi.



### Seçki kampaniyasındakı korrupsiya qalmaqalı

Metsola ilə bağlı qalmaqaldan günlər ötdükdə - 2023-cü ilin martın sonu, aprelin əvvəlində isə Belçika polisi və alman müstəntiqləri Almaniyada başladılan istintaq çərçivəsində sağ mərkəzçi Avropa Xalq Partiyasının Brüsseldəki qərargahında yoxlama apardılar - qeyd edək ki, Avropa Xalq Partiyası Avropa Parlamentində ən böyük fraksiya sayılır və üzvləri ən çox yerə sahibdirlər. İstintaqla bağlı əlavə məlumat verilməsə də, “Thueringer Allgemeine” qəzeti mənbələrə istinadən bildirmişdi ki, yoxlama Almaniya Xristian Demokratlar Partiyasının lideri Mario Foyqtun 2019-cu il Avropa seçkilərində EPP-nin seçki kampaniyasındakı korrupsiya qalmaqalı ilə əlaqədardır. İstintaq Foyqtun kampaniya zamanı müqavilə bağladığı bir internet şirkətindən mükafat alması ilə bağlı iddiaları araşdırır. Maraqlıdır ki, Avropa Xalq Partiyasının üzvləri arasında Avropa Parlamentinin sədri Robert Metsola, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, İsveçin Baş naziri Ulf Kristersson kimi tanınmış siyasətçilər yer alırdılar.

### AP sədrinin korrupsiya əməlləri...

Bu kimi korrupsiyaya söykənən faktlar isə yalnız AP-nin sadə üzvləri və ya daha aşağı ranqlı təmsilçiləri ilə bağlı baş vermir. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenlə bağlı korrupsiya faktları da beynəlxalq KİV-lərdə “gözə dəyir”. Məsələn bir müddət öncə Fransanın “Vətənpərvərlər” Partiyasının lideri Florian Filippo Avropa Komissiyasının rəhbərini korrupsiya sxemi yaratmaqda, dələduzluqda ittiham etmişdi. F.Filippo konkret olaraq onun bu sxem üzrə yol verdiyi qanunsuzluqları sadalamışdı. Ondan öncə isə “Liberation” nəşri Lyayenin partiyadaşı Markus Piperi Avropa Komissiyasında kiçik və orta müəssisələr üzrə müşavir postuna təyin etməsi ilə bağlı bir sıra faktlar açıqlanmışdı. Bildirilmişdi ki, AK prezidenti bu postu öz korrupsiya əməllərini reallaşdırmaq üçün təsis edib. Posta təyinatı da yaxın ətrafındakına verməklə ona aya 20 min avro maaş təyin edilmişdi. Bunun ilk hal olmadığı vurğulanırdı - Ursula Fon der Lyayenin öz yaxın dostlarının, xüsusən də alman soydaşlarının komissiyada rəhbər postlara təyin edilməsinə çalışması barədə başqa misallar da qəzet səhifəsində yer almışdı.

Fon der Lyayen haqqında üzə çıxan digər korrupsiya faktı isə daha ağır idi - Avropa İttifaqı Prokurorluğunun (EPPO) Belçika prokurorluğunun Avropa Komissiyasının (AK) rəhbəri Ursula Fon der Leyenə qarşı Amerikanın “Pfizer” şirkətindən koronavirus peyvəndi alması ilə bağlı cinayət işini ələ keçirdiyi məlum olmuşdu. “Politico” nəşrinin yazdığına görə, məsələ ilə bağlı Belçikanın hüquq-mühafizə orqanlarının əməkdaşına istinad edilmişdi. Bildirilmişdi ki, Avropa Komissiyasının rəhbəri ilə Amerikanın “Pfizer” şirkətinin baş direktoru Albert Bourla yazışmalarını üzə çıxarmışdı - bildirilirdi ki, bu yazışma peyvənd alınması ilə bağlı tarixin ən bahalı müqaviləsi bağlanmazdan əvvəl həyata keçirilib. Nəşr qeyd etmişdi ki, müqavilənin dəyəri 35 milyard avroya çata bilər. AK rəhbəri isə danışıqlar prosesinə “birbaşa təsir” etməkdə şübhəli bilinirdi - çünki alınmış peyvəndlərin sayı ehtiyacları xeyli üstələyirdi. Aİ-nin peyvənd ehtiyacları 1,8 milyard doza təşkil etdiyi halda, bu qədər “geniş müqavilə”nin imzalanmasının məntiqi açıqlaması yox idi.

### Erməni puluna “danışanlar”...

Bu kimi faktlar isə Azərbaycana qarşı erməni lobbisinin “dəyənəyi”nə çevrilmiş “parlamentarilər”in əsl simasını ortaya çıxarır. Budəfəki qərəzli qətnamə də daxil olmaqla Azərbaycana qarşı daimi mənfi yüklü çağırışlar səsləndirənlər erməni lobbisinin pulu ilə işləyir - maliyyələşmənin arxasında Avropada yaşayan erməni əsilli milyarderlər dayanırlar. Bunların sırasında Kaspar Karapetyan, Vartan Sirmakesin adlarını çəkmək olar. Bu lobbi nümayəndələri həmin parlamentariləri fərqli yol və üsullarla - bahalı kürklər, qiymətli daş-qaşlar (Karapetyan almaz alveri ilə məşğuldur), hətta vəzifə təyinatı ilə ələ alır, onları özlərindən asılı vəziyyətə salırlar. Lazım gəldikdə isə həmin “deputatlar”dan öz maraqları üçün istifadə edirlər. Bu isə adını “Avropanın Parlamenti” qoymuş bir qurum üçün rüsvayedicidir...

***S.İSMAYILZADƏ***

# Xəyallarının ardınca gedənlər...

## Yaxud Qərbin miqrantlara yaşatdığı məşəqqətli həyat

**Bu gün Avropa İttifaqı (Aİ) məkanına daxil olan ölkələrin, eləcə də Amerika Birləşmiş Ştatlarının (ABŞ) çoxsaylı problemlərindən biri miqrantlarla bağlıdır. Bir vaxtlar miqrantlara qucaq açan kollektiv Qərb indi tamam fərqli mövqedən çıxış edir. Etiraf olunur ki, artıq qlobal Qərb miqrant problemi ilə bağlı effektiv siyasət həyata keçirməkdə acizdir. İş o yerə çatıb ki, bir sıra hallarda yerli icmalarla çağırılmamış qonaqlar arasında açıq münaqişələr yaranır və bu münaqişələrin qarşısını almaqdan ötrü güc strukturları hərəkətə keçirlər. Vəziyyət getdikcə daha da kəskin hal alır.**

### BMT-nin kədərli təəssüratlar oyadan hesabatı

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMMYK) 2023-cü ildə qlobal olaraq vətəndaşlığı olmayan və ya olmadan yaşayan şəxslərə dair yeni hesabatını yayıb. Sənəddə ötən il dünya üzrə vətəndaşlığı olmadan yaşayan insanların sayının 4,4 milyon olduğu açıqlanıb.

Burada BMT tərəfindən vətəndaşsızlığa qarşı başladılan 10 illik təşəbbüsün böyük nailiyyətlər gətirdiyi, lakin daha çox tədbirə ehtiyac olduğu vurğulanıb. Vətəndaşlıq hüquqlarından məhrum edilən 500 mindən çox şəxsin BMT-nin 2014-cü ildə “IBelong” şüarı ilə başladığı təşəbbüs sayəsində vətəndaşlıq əldə etdiyi bildirilib.

Hesabatda “Böyük bir insan hüquqları pozuntusu olan vətəndaşsızlıq fərdləri əsas hüquqlardan məhrum edərək onları siyasi və iqtisadi cəhətdən kənarlaşdırır, sağlamlıq və təhsil kimi mühüm xidmətlərə çıxışı məhdudlaşdırır. Bu insanlar ayrı-seçkiliyə məruz qalır, xüsusilə istismar və təcavüzə qarşı müdafiəsiz olurlar”, - deyə qeyd edilib.

Hesabatda, həmçinin “dünya üzrə təxminən 1,3 milyon vətəndaşlığı olmayan insan isə yerindən edilib” ifadələri işlədilib.



### Hansı ölkəyə daha çox miqrant üz tutur?

Amerika Birləşmiş Ştatları qlobal Qərbdə miqrantların ən çox üz tutduğu ölkələrdən biridir. ABŞ Sərhəd Patrulu 2024-cü maliyyə ili ərzində Kanada sərhədindəki Suonton sektorunda 19,2 mindən çox sənədsiz miqrantı saxlayıb. Bu barədə sektorun baş sərhəd xidmət agenti Robert Qarsiya sosial şəbəkədə bildirib.

“Suonton sektoru sərhəd xidməti agentləri 1 oktyabr 2023-cü ildən etibarən 97 müxtəlif ölkədən 19,2 mindən çox insanı saxlayıb ki, bu da son 17 ilin ümumi göstəricilərindən çoxdur”, - deyə o yazıb.

Suonton sektoru Vermont ştatı və Nyu-Yorkla Nyu-Həmpşir ştatlarının bəzi rayonları ilə Kvebek və Ontario Kanada əyalətləri arasındakı sərhəddə yerləşir. Agentin paylaşdığı videomaterialdan məlum olur ki, saxlanılan qanunsuz miqrantların sayı 2020 və 2021 maliyyə illərində müvafiq olaraq 574 və 365 nəfər olub. Daha sonra bu rəqəm əhəmiyyətli dərəcədə artaraq 2022 və 2023 maliyyə illərində müvafiq olaraq 1 min və 6,9 min nəfərə çatıb.



### Artan miqrasiyanı şərtləndirən amillər

İnsanların miqrasiya etmələrini şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Bu barədə söhbət açarkən onun iki daha populyar növünə diqqət çəkə bilərik:

-Könüllü miqrasiya. Bir sıra hallarda insanların yerdəyişməsinə hansısa bir obyektiv zərurət yaranmır. Sadəcə, onlar həyatını dəyişmək, yeni rahatlıqlar qazanmaq xəyalları ilə başqa məkanlara üz tuturlar. Buna görə də statistikada könüllü miqrantların sayı azlıq təşkil edir.

-Məcburi miqrasiya. Bu gün dünya üzrə miqrantların böyük əksəriyyətini məcburi qaydada öz yaşayış yerlərini dəyişən insanlar təşkil edirlər. Hazırda Qərb ölkələrində miqrantlarla bağlı narazılıqların artması fonunda etiraf olunur ki, bu, ilk növbədə onların özlərinin əkdikləri ağacların acı meyvələridir. Məlumdur ki, qlobal Qərb özünün texnoloji inkişaf üstünlüklərindən istifadə etməklə qlobal Şərq üzərində müttləq üstünlüyə nail olmağa çalışır. Təkzibolunmaz reallıqdır ki, Qərbin Yaxın Şərq siyasəti bilavasitə “idarə olunan xaos” nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyəyə uyğun olaraq hədəf seçilən ayrı-ayrı ölkələrə “rəngli inqilablar”, uzun sürən dağıdıcı müharibələr ixrac edilir. Belə müharibələr və vətəndaş itaətsizliyi milli dövlətləri ağır sosial-iqtisadi duruma salır, mülki infrastruktur dağlılır, insanların həyatı pozulur, bir sıra hallarda onlar yaşayış yerlərindən belə məhrum qalırlar.

Ümidsiz, çarəsiz halda olan insanlar doğma yerləri tərk etmək və elə Qərb dövlərlərinin qapılarını döymək məcburiyyəti ilə üzləşirlər. Qeyri-leqal miqrant axınının kəskin artdığı Avropada hazırda yaranmış vəziyyət BMT tərəfindən “İkinci Dünya müharibəsindən bəri dünyada ən böyük qaçqın böhranı” hesab olunur. Qitəyə üz tutanların əksəriyyəti hazırda münaqişələrin, daxili müharibələrin, terrorizmin, xaosun hökm sürdüyü ölkələrdə yaşayış şəraitinin, humanitar vəziyyətin kəskin pisləşməsi ilə əlaqədar evlərini tərk etmək məcburiyyətində qalanlardır. Təqdim olunan statistika son dərəcə kədərli mənzərəni əks etdirir. 2023-cü ilin sonlarına olan məlumata əsasən, Avropa İttifaqı məkanında, o cümlədən Norveç və İsveçrədə 800 mindən çox sığınacaq ərizəsi təqdim edilib. Bu, 2016-cı ildən bəri ən yüksək göstəricidir. Sığınacaq üçün müraciətlər ünvanlayan ölkələrin sayı isə 30-a çatıb. Son olaraq Qəzzada baş verənlər, Rusiya-Ukrayna müharibəsi on milyonlarla insanın məcburi miqrasiya etməsi ilə nəticələnib.

### Qərbin miqrantlara kəskin ehtiyacı

Bir tərəfdən Qərbin özünə miqrantlar çox lazımdır. Məlumdur ki, hazırda Fransa , Niderland kimi ayrı-ayrı Avropa dövlətlərində ailə dəyərləri aşılanıb. Əhalinin təbii artımı müşahidə edilməyən belə ölkələrdə kəskin demoqrafik vəziyyət yaranıb. Avropanı 2050-ci və 2100-cü illərdək nə gözlədiyi barədə verilən proqnozlar olduqca bədbindir. 40-50 ildən sonra vəziyyətin daha kəskin şəkildə dəyişəcəyi ehtimal olunur. Dünya əhalisi ümumilikdə artsa da, Avropa mənşəli xalqlar təbii artım baxımından durğunluq dövrünü yaşayırlar. Verilən statistikaya əsasən, dünya əhalisinin ümumi çəkisində ağ əhalinin sayı 2000-ci ildə altıda bir rəqəminədək enib. 2050-ci ildə bu göstəricinin onda bir səviyyəsində olacağı proqnoz edilir. Avropanın 40-dan çox ölkəsində doğum göstəriciləri qənaətbəxş deyil. Mütəxəssislərin qənaəti belədir ki, əgər bu temp davam edərsə, qitə əhalisi XXI əsrin sonları üçün 207 milyona qədər azala bilər. Ən pis vəziyyət Fransada, Almaniyada, İspaniyada, Niderlandda yaşanır .

Avropa üçün daha böyük təhlükə əmək qabiliyyətli əhalinin sayının hədsiz azalmasıdır. 2050-ci ildə artıq Avropa əhalisinin ondan üç hissəsini 60 yaşdan yuxarı insanlar təşkil edəcək. Ehtimal edilir ki, Almaniyada, İspaniyada və bəzi başqa ölkələrdə hər onuncu adam 80 yaşından yuxarıda olacaq.

Beləliklə, Avropa ölkələrində işçi qüvvəsi çatışmır. Digər tərəfdən, yerli əhali ağır istehsalatlarda, xidmət sektorunda işləmək istəmir. Avropa dövlətləri bu boşluğu məhz miqrantlar hesabına doldurmaq məcburiyyətindədirlər.

### Qərb dünyası xəyal kimi görünsə də...

Dəhşətli müharibələrə, dağıntılara, ölüm-itimlərə səhnə olan Yaxın Şərqin insanları üçün Qərb dünyası xoş bir xəyala çevrilir. Onlar ağır yolçuluq əzablarına dözməklə Qərb ölkələrinə gəlib burada rahat həyatlarını quracaqlarını, yaxşı qazanacaqlarını, təhsil alacaqlarını, yüksəksəviyyəli tibbi xidmətlə əhatə olunacaqlarını düşünürlər. Lakin onlar Qərb dünyasına gəlib çatandan (əgər yolda oğurlanmasalar, güllə yağışına tuş gəlməsələr, qayıqları dəniz sulaına qərq olmasa) dərhal sonra xəyallarının xülyadan başqa bir şey olmadığını anlayırlar. Qərbdə miqrantları rahat həyat yox, məşəqqətlər gözləyir.

Dənizləri aşıb Avropaya üz tutan miqrantlar burada bütün hüquqi və sosial təminatlardan məhrum qalırlar. Bu qəbildən olan insanlara vətəndaşlıq verilməsi çox uzun və bəlkə də, keçilməsi mümkün olmayan bir prosesdir. Belə olan halda onlar hansısa bir sosial təminata malik olmurlar, gecəqondularda, küçələrdə yaşamaq məcburiyyətində qalırlar. Səhiyyə sistemi vətəndaşlığı olmayan miqrantların üzünə bağlıdır. Sığortadan kənar müalicə xidmətlərindən istifadə etməyə maddi durumları imkan vermir. Sığorta zərfinə daxil olan tibbi xidmətlərdən bəhrələnmək üçün isə vətəndaşlıq tələb olunur. Beləliklə, miqrantlar xəyal edib gəldikləri Qərb dövlətlərində çıxılması mümkün olmayan labrintə düşürlər.

Qərb dövlətlərində miqrantların başının digər bir bəlası kriminal ünsürlər və orqan mafiyasıdır. Gənc miqrantların və uşaqların oğurlanması adi hala çevrilib. Demək olar ki, heç bir qurum onların axtarışını öz üzərinə götürmür və beləcə miqrantların qanı batır. Orqan mafiyasının belə çirkin əməllərdən böyük həcmlərdə maliyyə vəsaiti qazandığı bildirilir. Eyni zamanda, kriminal ünsürlər kəskin həyat ehtiyacları olan miqrantlardan cinayət əməllərinin törədilməsində bir alət kimi istifadə edirlər...

### Avropa dövlətləri qapıları bağlayırlar

Avropa İttifaqı yeni ortaq miqrasiya sistemini həyata keçirmək yolunda addımlar atmağa başlayıb. Ayrı-ayrı ölkələrin rəsmiləri faktiki olaraq Avropa dövlətlərinin qapılarını miqrantların üzünə bağlamağı hədəfləyən yeni qanunun qısa müddətdə və geniş miqyasda tətbiq etməsinin zəruriliyini vurğulayırlar. Qanun layihəsinə əsasən, təhlükəsizlik məsələləri və ictimai asayiş üçün risk yarandığı hallarda miqrantların könüllü qayıdışı üçün hər hansı müddət müəyyən olunmamalıdır. Bu qəbildən olan şəxslər dərhal deportasiya edilməlidir.

Qeyd edək ki, Avropada miqrasiya sahəsində islahatlarla bağlı qanun uzun müzakirələrdən sonra may ayında qəbul olunub və onun həyata keçirilməsinə başlanılıb. Həmin islahatlara əsasən, nisbi sabitliyin hökm sürdüyü ölkələrdən gələn miqrantlara qarşı daha sərt tədbirlər görüləcək. Həmin şəxslərin Avropa İttifaqının üzvü olmayan üçüncü ölkələrə də göndərilməsi nəzərdə tutulur. Qanuna əsaən, təhlükəsizlik qurumlarının səlahiyyətləri müəyyən həcmdə genişləndiriləcək, miqrasiyanın nizamlanması və nəzarətdə saxlanılması məqsədilə nəzərdə tutulan tədbirlər gücləndiriləcək.

O cümlədən Almaniya federal hökuməti miqrasiya siyasətində daha sərt qaydaların tətbiqini planlaşdırır. Ölkənin daxili işlər naziri Nensi Fezer barələrində deportasiya qərarı çıxarılan şəxslərin təhlükəsizlik və digər məsələlərlə bağlı risklər yarandığı təqdirdə ölkədən daha sürətli şəkildə göndərilməsini nəzərdə tutan qanun layihəsini təqdim edib. Nazir bununla Avropa İttifaqının miqrasiya sahəsində islahatlarla bağlı qanununun və hökumətin miqrasiya paketinin sürətlə həyata keçiriləcəyinə ümid etdiyini bildirib.

Qeyd edək ki, hökumətdə təmsil olunan partiyaların parlament fraksiyaları avqustun sonunda Almaniyanın Solingen şəhərində üç nəfərin ölümü və bir neçə nəfərin xəsarət alması ilə nəticələnən silahlı hücumdan sonra təhlükəsizlik məsələlərindən məsul qurumların səlahiyyətlərinin genişləndirilməsini nəzərdə tutan təhlükəsizlik paketi barəsində razılığa gəlmişdilər. Nəzərdə tutulan qanun layihələri ölkədə ictimai asayişi gücləndirməyə və miqrasiya məsələlərində daha təsirli tədbirlərin görülməsinə xidmət edir.

Avropada milli səviyyədə artan miqrasiyanın qarşısını almağa yönələn qanun qəbul edən ilk ölkələrdən biri Fransa oldu. Bu ölkədə etirazlarla qarşılanan müvafiq qanun ötən ilin sonlarında qəbul edilib. Verilən məlumatlara görə 2023-cü ildə qanunları pozan 4,5 mindən çox miqrant Fransadan çıxarılıb. Bu, bir il əvvəlki göstərici ilə müqayisədə 30 faiz çoxdur.

Kanada hakimiyyəti miqrant axını üçün illik kvotaları ən azı 20 faiz azaltmaq niyyətindədir. Bu barədə CTV məlumat yayıb. “Global News” isə bir neçə hökumət mənbəsinə istinadən xəbər yayıb ki, Ottava tezliklə yeni gələnlərin sayını azaltmaq üçün ölkənin immiqrasiya sistemində əsas dəyişiklikləri elan edəcək. Söhbət ilk növbədə yaxın bir neçə ildə ölkəyə qəbul edilən miqrantların sayının azaldılmasından gedir.

***Mübariz FEYİZLİ***

# BTQ Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması barədə hesabat hazırlayıb




**Bakı Təşəbbüs Qrupu QHT-lərə Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması, ifadə azadlığı, təbiətə dəyən ziyan barədə hesabat hazırlayıb.**

**Bu barədə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov "Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması haqqında hesabat"ın təqdimatına həsr olunmuş mətbuat konfransında söyləyib.**

**O bildirib ki, hesabatda Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması və bununla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının qarşısının alındığı barədə geniş**

# Korsikada azadlıq mübarizəsinin yeni mərhələsi

Dördüncü sənaye inqilabına keçid etdiyimiz XXI əsrin inkişaf səviyyəsi, baxışları və çağırışları müstəmləkəçilik təzahürləri ilə daban-dabana ziddiyyət təşkil edir. Biri müasirlik və gələcəkdir, digəri isə tarixin zibilliyində qalası keçmişdir. Ancaq Fransa müasirliyi, inkişafı simvolizə edən demokratiya, bərabərlik, insan haqları kimi prinsipləri bəyan etsə də, yüzilliklər ərzində öz nəzarətində saxladığı ayrı-ayrı Afrika və dənizaşırı ərazilərdə müstəmləkəçilik siyasətini hələ də ən eybəcər formada davam etdirir. Yelisey Sarayından verilən mesajlardan o qənaət hasil olur ki, rəsmi Paris qeyd olunan ərazilərdə sümürmə siyasətindən əl çəkmək niyyətində deyil ki, bu da ciddi etirazlar doğurur. Fransa müstəmləkəçiliyindən əziyyət çəkən getdikcə daha çox ölkə öz müstəqilliyi uğrunda azadlıq mübarizəsinə qalxır. Təkcə son vaxtlarda Nigerdə, Qabonda, Martinikada, Yeni Kaledoniyada və digər ünvanlarda baş verənlər bunun aydın ifadəsidir.

Fransanın müstəmləkəçilik siyasətinə qarşı çıxan ölkələr sırasında, həmçinin Korsika da yer alır. Bu ölkədə azadlıq mübarizəsi dönməz prosesə çevrilib. Prezident E. Makron vədlərlə, dilətutmalarla, bunlar nəticə vermədikdə isə sərt təzyiq vasitələri ilə Korsikada etirazları səngitməyə çalışsa da, onun səyləri bir nəticə vermir.

"Fransa Konstitusiyasının bizə rəva bilmədiyini beynəlxalq hüquqda və Birləşmiş Millətlər Təşkilatında axtarmaq niyyətindəyik". Bu sözləri "Nazione" partiyası adından Petr'Anto Tomasi Ayaççoda keçirdiyi mətbuat konfransında səsləndirdiyi bəyanatında deyib.

## Avropaya demokratiya gətirən ilk ölkələrdən biri

Bu gün Fransa dünyada ən sərt müstəmləkəçilik siyasəti aparan ölkə kimi tanınır. Yelisey Sarayının sümürməçiliyinin, aboroigen xalqların hüquqlarını tapdalamasının, bölücü xətlər çəkməsinin sərhədi yoxdur. Fransanın qatı müstəmləkəçilik siyasəti Korsikada da öz kədərli izlərini buraxıb. Xatırladaq ki, Korsika zamanında Avropaya demokratiya gətirən ilk müstəqil dövlətlərdən biri olub. Müstəqil Korsikanın əsası Paskal Paoli tərəfindən 1755-ci ildə qoyulub. Bu, xalqın uzun illər davam etdirdiyi azadlıq mübarizəsinin nəticəsində mümkün olub.

Əslində, müstəqil Korsika Respublikasının konstitusiyası müasir tipli ilk Avropa konstitusiyası idi. Burada dünya tarixində ilk dəfə qadınlara seçki hüququ tanınırdı. Jan Jak Russo və Volter kimi maarifçi filosofların azadlıq, müstəqillik və demokratiya haqqında fikirlərini özündə ehtiva etdən bu sənəd sonradan avropalıların ilham mənbəyinə çevrilib. Korsika Respublikası qısa müstəqillik tarixində, həmçinin öz hökumətini qurub, dövlət bayrağını və digər atributlarını təsis edib, ordu formalaşdırıb...

## İki əsr ərzində boğulan azadlıq mübarizəsi

Lakin bütün bunlar tezliklə keçmiş olub. Belə ki, cəmi 14 il sonra, 1769-cu ildə Fransa adanı işğal altına alaraq Korsikanı özünün müstəmləkəsi elan edib. Bu işğal korsikallılara böyük məhrumiyyətlər gətirib. İki əsrdən çoxdur ki, adada azadlıq mübarizəsi Fransa hökuməti tərəfindən amansızlıqla boğulur, ictimai fəallar uydurma ittihamlar əsasında həbsə alınırlar. Bir qayda olaraq müstəmləkəçiliyə qarşı mübarizə aparan korsikalılılar Fransa həbsxanalarında saxlanılır və burada onlara ən ağır formada işgəncələr verilir.

Təxminən 200 ili əhatə edən müstəmləkəçilik dövründə Fransa Korsikanı öz ənənələrindən və tarixindən uzaqlaşdırmaq siyasəti apararıb. Adanın "fransızlaşdırılması" hazırda da davam etdirilir. Verilən məlumatlara görə, hər il minlərlə Fransa vətəndaşı hökumətin dəstəyi ilə Korsikada daşınmaz əmlak alır ki, bu da adanın demoqrafik vəziyyətini dəyişdirməyə xidmət edir. Yerli əhalinin müstəqilliklə bağlı referendum istəklərinə məhəl qoyulmur, referendum təşkil olunduqda isə nəticələr açıq-aşkar saxtalaşdırılır.




P. Tomasi yuxarıda bəhs etdiyimiz bəyanatı Korsika görə, Korsikanın BMT-nin müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər siyahısına daxil olunmasını hazırda davam edən muxtariyyət prosesi ilə müqayisə etmək əbəsdir.



Jozefa Ciakometti-Pireddanın fikrincə, Korsikanın müstəmləkə olduğunu və beləliklə, dekolonizasiya edilməli olduğunu söyləmək suverenliyə və müstəqilliyə dair qərar vermək hüququ baxımından dövlətlə müzakirə üçün vacib amildir.

## Yelisey Sarayının bəhanələri işə yaramır

Son vaxtlarda müşahidə edilən proseslər onu deməyə əsas verir ki, artıq Korsikada Fransa müstəmləkəçiliyindən qopmaq, geniş status almaq uğrunda təxminən 200 illik azadlıq mübarizəsinin yeni və geriyə dönməz mərhələsi başlayıb. 2022-ci ildə Korsikada 1998-ci ildə bir prefektin qətlinə görə ömürlük həbs cəzasına məhkum edilmiş İvan Kolonnanın həbsxanada öldürülməsindən sonra yeni etirazlar dalğasına start verilib. İvan Kolonna adanın müstəqilliyi uğrunda mübarizənin simvolu kimi qəbul edilirdi. Korsikanın statusu məsələsi daha sonra Fransada ictimai müzakirələrin bir hissəsi oldu. Adada artan gərginliyə və kütləvi anti-hökumət etirazlarına cavab olaraq, Daxili İşlər Naziri Korsikanın statusunun dəyişdirilməsi ilə bağlı danışıqlar aparıldığını elan edib. Amma hökumət hələ də getdikcə kəskinləşən siyasi böhrandan çıxış yolu tapma bilmir. Əslində, mərkəzi hakimiyyətlə korsikalı siyasətçilər arasında adanın gələcəyi ilə bağlı aparılan danışıqlar dalana dirənib. Ortaq məxrəcə gəlinməməsi adanın statusu ilə bağlı ciddi mövqe fərqləri ilə bağlıdır. Korsikanın solçu millətçiləri "Korsika millətinin" tanınmasını, Korsika dilinə rəsmi status verilməsini tələb edirlər. Adanın təhsil, səhiyyə və vergi siyasətinin müstəqil idarə edilməsi də tələblər sırasındadır.

Prezident E.Makron Korsikada sabitliyi təmin etmək və Fransaya etimad yaratmaq üçün son illərdə bir neçə dəfə adaya şəxsən səfərə gedib və parlamentdə çıxış edərək yenə də korsikalıların başının altına yastıq qoymağa çalışıb. Lakin onun "geniş status"baxışları və vədləri ada sakinlərinin istəyindən çox uzaqdır. Fransanın dövlət başçısı Korsikanın millət və dillə bağlı tələblərindən ehtiyat edir və buna görə də manevrlərə əl atır. Ancaq Korsikada müşahidə edilən son proseslər ondan xəbər verir ki, Makronun belə imkanları çox məhduddur. Belə görünür ki, artıq Yelisey Sarayının bəhanələri bir işə yaramır və adanın Fransanın təsir dairəsindən çıxacağı gün uzaqda deyil.

## Korsika xalqının gələcəyi və torpaqlarında yaşamaq hüququ üçün həlledici element

Assambleyası tərəfindən bu adanın özünüidarə etməyən ərazilər siyahısına (müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər) daxil olunmasını tələb edən vəsatətin araşdırılmasından bir gün əvvəl verib. Bu vəsatət cari ilin yanvarında Korsika Assambleyasının deputatı Jozefa Ciakometti-Piredda tərəfindən irəli sürülüb. O bildirib ki, institusional ardıcıllıq Korsika xalqının gələcəyi və torpaqlarında yaşamaq hüququ üçün həlledici elementdir. Bununla o, vətənpərvərlərin onilliklər boyu davam edən mübarizə ilə ödədikləri ağır nəticələri, hətta Aleria Edmond Simeoninin sözlərini xatırladaraq, özlərini millətin bir hissəsi olduqlarını iddia edən bütün seçilmiş rəsmiləri bu yanaşmaya sahib çıxmağa, Birləşmiş Millətlər Təşkilatı qarşısında tutduğu yolu davam etdirməsinə səs verməklə onu dəstəkləmələrini istəyib.

"Nazione" partiyasına müstəqilliyə dair qərar vermək hüququ baxımından dövlətlə müzakirə üçün vacib amildir.

Korsika BMT-nin özünüidarə etməyən ərazilər siyahısına daxil olmaq üçün bütün hüquqi və siyasi tələblərə cavab verir. Aralıq dənizində yerləşən Malta da İkinci dünya müharibəsinin sonundan 1964-cü ilədək, yəni, müstəqillik əldə edənə qədər bunu yaşayıb. Birləşmiş Millətlər Təşkilatı "bütün insanlar özünüidarə hüququna malikdir" prinsipini təsbit edib və bu hüquq çərçivəsində onlar öz siyasi statuslarını azad şəkildə müəyyənləşdirir, iqtisadi, sosial və mədəni sahələrdə inkişaflarını sərbəst həyata keçirirlər.

"Nazione" partiyası adanın "müstəmləkəsizləşdiriləcək ərazi" olmasına səs vermək üçün Korsika Assambleyasına çağırış edib.

*Mübariz ABDULLAYEV*

# Vasitə məqsədi doğrultmayanda

## Fridrix Şillerin "Qaçaqlar" dramı haqqında

**əvvəli ötən sayımızda**

Onlar çirkin qayda-qanunlar uydurur, min bir şərtə boyun əyməklə öz təbiətlərini zorlayırlar. Bir qədəh şərabı əsə-əsə içirlər: görəsən bu sağlığa içsəm, necə olar, xatası çıxmaz ki? İşləri düşəndə lakeyə belə yaltaqlanırlar - yeri gələndə saqqal tərpədə bilər, ancaq fağırları, yoxsulları ayaqlayıb keçirlər, çünki onlardan qorxmur, bir xeyir gözləmirlər. Ləzzətli bir nahar verəndə bir-birinin tərifini göylərə qaldırırlar, di gəl, bir həsir üstündə bir-birinə qənim kəsilirlər. Kilsəyə az gedənləri kafir adlandırırlar, özləri isə mehrab önündə sələmlərini hesablayırlar. Diz çökəndə ibadətə yox, paltarlarının yaraşığına, oxunan dualara yox, dua oxuyanın parikindəki qıvrımlara fikir verirlər. Qaz başı kəsiləndə özlərindən gedirlər, rəqibləri birjada müflis olanda isə əl çalıb sevinirlər...

Mənmi öz bədənimi məngənəyə salmalı, iradəmi qanunlarla zəncirləməliyəm? Qanun qartal qanadıyla uça bilənləri belə ilbiz kimi sürünməyə məcbur eləyir. Qanun bir nəfər də olsun böyük insan yetirməyib, böyük ehtiraslar, nəhəng təbiətlər yalnız azadlıqdan doğur. Müstəbidin qarnına girəndən sonra onlar onun mədəsinin şıltaqlarını yerinə yetirir, onun yelində boğulurlar. Ah, əgər Hermanın böyük ruhu külə dönmüş xarabalıqlar içindən qalxıb alovlana bilsəydi!.. Mənə özüm kimi qoçaqlardan ibarət bir ordu verin, Almaniyadan elə bir respublika yaradım ki, Roma da, Sparta da onun yanında qadın monastırına bənzəsin".

Göründüyü kimi, Karl Moor antik dövrün ideallarıyla yaşayır, ancaq qədim filosofların, alimlərin yox, antik sərkərdələrin idealları, qədim hökmdarların cəngavərlik arzuları, imperatorların cahangirlik xülyalarıyla. Onun Almaniyada qurmaq istədiyi respublika da maarifçi mütəfəkkirlərin, xalq hakimiyyəti ideyası müəlliflərinin arzuladığı cümhuriyyət yox, bir zaman Kromvelin İngiltərədə qurduğu sayaq respublika maskalı diktatura, bir az da uzağa gedə bilsə, işğalçı imperiya ola bilər.

***

Meyxanada olduğu vaxt qardaşının qoca qrafın adından göndərdiyi namə Karla yetişir. Bundan əvvəl Karl atasına yazdığı məktubda səhvlərini səmimi şəkildə boynuna almış, indən belə özünü ləyaqətlə aparacağına söz vermişdi. İndisə Frans yazır ki, ataları Karlı lənətləyib, əgər qardaşı qəsrə qayıtsa, qollarına zəncir vurulub zirzəmiyə atılacaq. Karl bu xəbərdən bərk sarsılır; o gözləyirdi ki, atası sevimli oğluna tələfxərcliyini, ərköyünlüyünü bağışlayıb ona yenidən xərclik göndərəcək, nəticə isə gözlədiyinin tam tərsinə olur. Bəs indi neyləməli?

Dostlardan biri təklif eləyir ki, Bohemiya meşələrinə çəkilib qaçaqlığa başlasınlar, zadəganları, tacirləri, varlı yolçuları soyub-talamaqla özlərinə gün ağlasınlar. Hamı bu təklifə həvəslə razılaşır, ancaq onlara bir rəhbər, bir başbilən gərəkdir. Dostlar Karl Mooru yekdilliklə qaçaq-quldur dəstəsinin atamanı seçirlər. Karl öz vəzifəsinə sadiq qalacağına, dostlarını heç vaxt bada verməyəcəyinə and içir. Öz növbələrində dəstə üzvləri də ona sədaqət andı içirlər.

***

Frans Moor qardaşını atasının gözündən salmaqla kifayətlənmir, adaxlısı Amaliyanı da ondan soyutmağa, iyrəndirməyə çalışır. Məqsədi bu yolla qızı ələ keçirməkdir. Frans deyir ki, Karl Amaliyanın ona yadigar verdiyi almaz qaşlı üzüyü xidməthaqqı yerinə bir fahişəyə bağışlayıb. Ancaq qızın saf qəlbi xain qardaşın hiyləsini duyur, Amaliya Fransı sərt bir tövrlə rədd eləyir.

Fəqət Frans məkrli əməllərindən bir addım belə geri çəkilmir. Təkcə qardaşı yox, atası da tikanlı kol kimi onun sərvətə, hakimiyyətə gedən yolunun üstündə bitib. Qardaşını sıradan çıxarandan sonra onun başlıca məqsədi qoca atasını yolundan qıraq eləməkdir. İblisdən dərs almış Frans niyyətinə çatmaq üçün taxt-tac uğrunda atasının, qardaşının, hətta övladının qanına əl bulayan sultanlar, krallar qədər amansız, onlar qədər qətiyyətlidir. Qoca qrafın qətlində barmaq izi qoymasın deyə müxənnət oğul Herman adlı qeyri-qanuni mülkədar balasını prosesə qoşur, atasının yaralı qəlbini yüksək dozalı dərdlə partlatmağı qərara alır. Hermanın da Amaliyada gözü var, Frans yalandan boyun olur ki, özü qraf olandan sonra Amaliyanı ona verəcək, Herman da bu ümidlə suiqəsddə iştiraka razılaşır.

Qiyafəsini dəyişən bic mülkədar oğlu qoca qrafın hüzurunda özünü Karlı tanıyan adam kimi qələmə verir. Fransın öyrətməsiylə qraf fon Moora böyük oğlunun Praqa civarındakı döyüşdə həlak olduğunu xəbərləyir. Qoca qraf Karlın ölümündə özünü günahkar bilir, ancaq Fransın üzündəki sevinc sayrışmalarını görəndə fəlakət qasırğasının hayandan əsdiyini anlamağa başlayır. Qraf dərdin ağırlığına dözməyib Amaliyanın qolları üstündə huşunu itirir, Frans atasını öldü bilib dəfninə hazırlıq görür.

***

Bu əsnada qaçaq-quldur dəstəsinin başçısı Karl fon Moor Bohemiya meşələrində at oynadır, varlıların sərvətini talayıb yoxsullara paylayır. Allahsız dünyadan, ədalətsiz quruluşdan, harınlamış dövlətlilərdən öc almağı qarşısına məqsəd qoyan bəyzadə öz ailəsinə, silkinə, dininə, dövlətinə qarşı çıxan anarxist kimi davranır, ard-arda vurduğu ağır zərbələrlə köhnə dünyanın dayaqlarını sarsıdır. Qisas onun əsas hərəkətverici qüvvəsi, başlıca prinsipidir. Əslində, Karlın mübarizəsi konkret bir şəxsdən, quruluşdan, dindən, dövlətdən də çox bütün bəla qaynaqlarının ümumiləşdirilmiş adı-ünvanı olan fələyin çarxına, zamanın gərdişinə qarşıdır.

Fəqət dəstə üzvləri ataman kimi ədalətli, səxavətli deyillər. Varlılar, mülkədarlar bir yana qalsın, onlar hətta qadın monastırını talamaqla, rahibələri zorlamaqla öyünürlər. Ələ keçmiş bir qaçağı dara çəkilməkdən qurtarmaq üçün Karl Moor dəstəsiylə şəhərə hücum çəkir, əvvəlcədən söz verdiyi kimi, evlərə, küçələrə od vurur. Nəticədə dəstə üzvü dardan qurtulsa da, əksəri qadın, uşaq, xəstə, qoca olan səksən nəfəri qisas alovu diri-diri yandırır. Hətta qaçaqlardan biri üşüyən uşağı isinsin deyə oda atdığını yoldaşlarına gülə-gülə söyləyir. Ataman qəzəblənib onu yanından qovur.

Qaçaq yoldaşını ölümdən qurtarmağın ona çox baha başa gəldiyini anlayan Karl vicdan əzabı çəkir. Eynən Bohemiya qoşunu onları meşədə mühasirəyə alanda da qaçaqlar vur-tut bir itki verməklə üç yüz əsgəri qətlə yetirirlər. Bəlli olur ki, Karl Moorun öz məqsədinə çatmaq üçün alət kimi yararlanmağa çalışdığı qaçaqlar artıq çoxdan əldə qəfil açılan təhlükəli silaha, ramolunmaz başıpozuq dəstəyə çevriliblər. Artıq ataman onları yox, onlar atamanı idarə eləyirlər. Karlın idealları onlara yad-yabançıdır, onları var-dövlət hərisliyi, bundan da betəri - öldürmək ehtirası hərəkətə gətirir.

***

Karl ölümlə çilik-ağac oynamaqdaykən qardaşı Frans ata mülkünə yiyələnib. Di gəl, müxənnət qardaş nə xoşbəxtlik, nə rahatlıq, nə dinclik tapıb. Amaliyanı da heç cür ələ keçirə bilmir, atasının çörəyilə böyümüş yetim qızı zorla özünə arvad, bu da alınmazsa kəniz eləməyə cəhd göstərir (Amaliya gözü qızmış Fransa cehiz qismində yağlı bir şillə çəkir), heç biri baş tutmayanda qızı monastıra göndərməklə hədələyir. Amaliya isə buna şaddır - həm eybəcər məxluqun arvadı olmaq işgəncəsindən qurtulacaq, həm də monastırda dinclik tapıb Karlın xatirəsiylə baş-başa qalacaq.

Fransın ona kələk gəldiyini anlayan Herman Amaliya ilə söhbətdə dəhşətli sirrin üstünü açır: qoca qraf da, Karl da sağdır. Bu etiraf Amaliyanın qəsrdən qaçmaq planını pozur. Karl Moor başqa ad altında ata yurduna qayıdır. Amaliya ilə söhbətdən sonra Karl qızın öz andına sadiq qaldığını, "ölmüş" sevgilisinin xatirəsini hələ də əziz tutduğunu görür. Doğma evində ailənin böyük oğlunu heç kəs tanımasa da, şəkkak Frans daim oyaq şübhəsinin casusluğu sayəsində onun kimliyindən duyuq düşüb, qoca nökər Danielə qonağın başını əkməyi tapşırır. Nökər əlindəki çapıqdan Karlı tanıyır. Karl özünü dana bilmir, ancaq artıq qəsri biryolluq tərk eləməlidir. Bundan əvvəl o, Amaliyaya bir də baş çəkir.

Qəsrdən çıxan Karl Moor qaranlıqda qüllədən səs eşidir. Sən demə, qoca qraf Hermanın gətirdiyi yalan xəbərdən ölməyibmiş, sadəcə bayılıb, sonradan tabutda ayılıbmış. Bunu bilən Frans onu qülləyə atdırıb aclıqdan, soyuqdan ölməyə məhkum eləyir. Bu müddətdə sağ qalmağının səbəbi də Hermanın gizli-gizli qocaya yemək aparmasıymış. Atasının başına açılan oyundan xəbər tutanda Karl artıq dözə bilmir, öz əlaltılarına qəsrə soxulub qardaşını onun hüzuruna gətirməyi əmr eləyir.

***

Qoca nökər Daniel gecə vaxtı şələ-küləsini yığıb, bütün şüurlu ömrünü keçirdiyi qəsrdən həmişəlik ayrılmağa hazırlaşır. Bu vaxt Frans hövlnak özünü yetirib onu keşiş dalınca göndərir. Gənc qraf yuxusunu qarışdırıb, yuxuda ona məhşər əzabı əyan olub. Bu zamanacan Allaha, dinə istehzayla yanaşan Fransın indi Tanrı müdaxiləsinə, keşiş yardımına ehtiyacı yaranıb. Pastor ona ata, qardaş qətlinin ən ağır günahlar olduğunu deyəndə Frans başa düşür ki, ruhu cəhənnəmlikdir. Karlın qaçaqları qəsrə od vursalar da, Fransı sağ ələ keçirə bilmirlər - o özünü nazik qatmayla boğur.

Qaçaqlara qoşulub meşəyə gedən Amaliya adaxlısı Karla sarılanda qraf fon Moor sevimli oğlunun quldur dəstəsinin başçısı olduğunu anlayır. Qoca qraf buna dözməyib canını tapşırır. Amaliya isə sevgilisinin yedəyində hər yola getməyə hazırdır, fəqət Karlın qaçaqlarla əhd-peymanı var, cinayət aləminin qanunlarına görə, o, andını poza bilməz. Amaliya xoşbəxtliyinin baş tutmayacağını anlayanda Karldan ölüm istəyir. Karl xəncəri sevgilisinin köksünə saplayır, bununla da öz ölümünə cığır açmış olur.

Qaçaqlar onu yola davam eləməyə səsləsələr də, Karl Moor nifrət bəslədiyi başıpozuq kütlədən ayrılmaq qərarına gəlir. Yoldaşları onu sərsəmlikdə, şan-şöhrət divanəsi olmaqda suçlayırlar. O isə bağışlanmaz günahlarını ömrü çatdığı qədər suya çəkmək fikrindədir. İntihar çıxış yolu, həm də məqbul yol deyil - günahı günahla yumazlar. Onun başına böyük məbləğdə pul qoyulub, həmin pul onun yerini deyənə, onu təhvil verənə çatacaq. Daxmasında on bir tifil bəsləyən yoxsul muzdura bu, çox böyük kömək olacaq...

***

Karl Moor ədalət sorağına çıxan anarxist, həyata yeni nırx qoymağa çalışan qəhrəmanlıq təşnəsi, şücaət xəstəsidir. Onun faciəsi bundadır ki, qəlbinin saf diləklərini qol gücünə gerçəkləşdirmək istəyir, ona görə də yaxşı məqsədlə tutduğu əməllər cinayətə çevrilir, xoş niyyətlə atdığı addımlar qana bulaşır. Başqa sözlə, Karl Moorun seçdiyi vasitə onun ülvi arzularını, ali məqsədlərini doğrultmur, onlara uyğun gəlmir. Nəticədə sosial təhlükəyə, ictimai bəlaya müqavimət göstərən xilaskar güc özü ən böyük təhlükəyə çevrilir, bir günahkarı qurtarmaq üçün səksən günahsız insanı bada verirsən. Mənəviyyatın pozulmaz qızıl qanunlarından biri bu zaman bir daha təsdiqini tapır: qanı qanla yumaq, şəri şərlə sağaltmaq mümkün deyil. Ədalətə cinayət yoluyla çatılmaz, həqiqətə yalan dəlillərlə yetişilməz:

"Eşidin məni, mənim yırtıcı niyyətlərimin xəbis icraçıları! Bu andan etibarən mən sizə ataman deyiləm. Həya, qorxu içində mən bu qanlı tacı başımdan atıram. Bu günəcən mənim hökmümə boyun əyib cinayət toxumu səpmisiniz, şər əməllər törətməklə xaliqin evini viran qoymusunuz, üstəlik, bu işlərdə özünüzü haqlı bilmisiniz...

Mən axmaq dünyanı cinayətlə islah eləmək, qanunsuzluqla qanun yaratmaq xülyasında olmuşam. Elə bilmişəm qisas bayrağı, ədalət qılıncı qaldırıram. Əslində isə Tanrı iradəsinə qarşı çıxmışam... Rəhm elə, xudaya, sənin divanından əvvəl divan qurmaq istəyən bu tifilə rəhmin gəlsin! Divan da sənindir, qisas da! Sən insan gücünə möhtac deyilsən".

Karl əgər antik çağın despotlarını, tiranlarını, cəlladlarını yox, müdriklərini, filosoflarını örnək götürmüş olsaydı, ondan yaxşı bir epikürçü, ya da stoik çıxardı. Onda onun anarxizmi bəhrə vermiş olardı, çün zahirən epikürçülərlə stoiklər bir-birinə düşmən olsalar da, hər ikisi asketizm məktəbi, hər iki tərəf tənhalığıyla kütləyə meydan oxuyan, səsini götürüb xordan çıxan anarxistlər ordusudur.

Axır-axırda Karl Moor qədim stoiklərin toplaşdığı məşhur limana yan almış kimi görünür, hərçənd xristian ehkamlarının içində böyümüş biritək stoisizmin zəruri halda məqbul saydığı intihardan vaz keçir. Ancaq onun özünü yoxsul muzdurun əliylə ədalət divanına təhvil verməsinin özü də bir intihardır. Onu edam eləyəcəklər; yox, əgər könüllü təslim olduğuna, ləyaqət nümunəsi göstərdiyinə görə aman, möhlət versələr, zindana atmaqla kifayətlənsələr, həbsdən çıxandan sonra Karl mütləq monastıra çəkiləcək, güclə, silahla, qoşunla çata bilmədiyi diləyinə orada əliyalın yetişəcək. Zatən tənhalıq cəngavəri rahib özü də dünyanın oturuşmuş nizamını pozan bir anarxistdir.

O ki qaldı Frans Moora, onun öz taleyi yoxdur; o zavallı bu həyata qardaşının kölgəsi kimi, həm də ondan azacıq sonra gəlib. Ona artıq adam da demək olar. Onun gözü özgəsinin qabında, özgə çəpərinin o üzündədir. Frans əgər özüylə əlləşib öz baxtının sorağına çıxsaydı, qardaşının qabından oğurlamağa çalışdığı təamlardan qat-qat ləziz nemətlər də tapa bilərdi. Ancaq müəllif ona heç bir şans, qismət verməyib, təpədən-dırnağa şeytana mübtəla olmuş bu fiqurun ruhu yoxdur, sadəcə, quru, yalın, köksüz-köməcsiz ağlı, soyuq, qansız məntiqi var. Bu ağıldan gələcəkdə Dostoyevskinin əxlaqi ehkamları, mənəvi qanunları şübhə altına alan rasional qəhrəmanlarına da pay düşəcək.

Həm də təkcə Dostoyevskinin yox. Çağdaş dünyanın mənzərəsinə diqqətlə göz yetirsək, görərik ki, Şillerin yaratdığı tiplər bu gün də aktualdır.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şənbə üçün nəzm

**Ay bizim küçədən doğur,**
**Gün sizin küçədən çıxır**

Gecələrin zülmətində ağartmışam saçlarımı,
Sən də o səhər gedəndən başım hər gecədən çıxır.
Göy üzündə bir ulduz var, uzaqlığı sən qədərdi,
Bilirəm ki, o ulduz da düz saat neçədən çıxır.

Mən payız olsam da belə, kaş ki məni yaz duyasan,
Həsrətimi əridəsən, dərdlərimi buz duyasan,
Sənki mənim içimdəsən, gərək məni tez duyasan,
Axı mənim öz könlümdə səsim lap ucadan çıxır.

Sökülüb ürəyim gedib, indi nə kənd, nə şəhərdi,
Bu aldığım nəfəs deyil, udduğum qəmdi, qəhərdi,
Hər səhər gecədi bizdə, hər gecə sizdə səhərdi,
Ay bizim küçədən doğur, gün sizin küçədən çıxır.

***

**Kəsmə saçını**

Ömrümdən qoparıb qara günləri,
Saçının üstünə atıb gəlmişəm.
Gözüm gözlərinə ilişib, amma,
Özüm saçlarından tutub gəlmişəm.
Kəsmə saçını.
Onsuz da səbirsiz olmuşam bir az,
Bir az da telində səbrim kəsilər.
Ömür yollarımdır sənin saçların,
Saçını kəsərsən, ömrüm kəsilər,
Kəsmə saçını.
“Ay uzun hörüklüm, ay qara saçlım”
Deməyə dodağım, dilim öyrəşib.
Qısa saçlarında ac qalar əlim,
Uzun saçlarına əlim öyrəşib.
Kəsmə saçını
Günəş gözlərini düşəndə birdən,
Saçın kölgə salır, gözünü örtür.
Sən mənlə barışsan, alnını açır,
Sən məndən küsəndə üzünü örtür,
Kəsmə saçını.
Nə olsun tacın var, saçın kəsilər,
O uca başına tacın bəs etməz.
Birdən ürəyindən atarsan məni,
Özümü asmağa saçın bəs etməz.
Kəsmə saçını.

***

**Balaca evlər**

Böyük adamlarla dolu olardı,
Bizim kəndimizdə balaca evlər.
Bəmbəyaz günlərin yadigarıydı,
Tüstüyə bürünmüş qaraca evlər.
Yollar da ayrıca bir aləmiydi,
Cığırlar havada kəndir kimiydi.
Bütün kirpiklərdən buz sallanardı,
Bütün nəfəslər də təndir kimiydi.
Onda pərdəliydi qonşular, ancaq,
Evlər arasında hasar yoxuydu,
Evdən böyük idi bu kənddə daşlar,
Amma ki bu boyda divar yoxuydu.
Gəzərdik daş üstə ayağı yalın,
Bərkiyib dönrədik bir dağa onda.
Anam yerimizi yerdən salardı,
Daha yaxın idik torpağa onda.
Mən elə bilirdim, uçmaz, dağlmaz,
Dağa söykəyərdi özünü evlər.
Torpaq tökülübdür pəncərəsinə,
Beləcə yumubdur gözünü evlər.

Yiyəsiz qalıbdır həyət-bacası,
Çölünün dərdinə içi göynəyir.
O dilsiz-ağızsız daş evdən ötrü,
Off! Yenə burnumun ucu göynəyir

*Valeh Qoca*

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadəyə atası

**ARİF ABBASZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Yağışla bağlı növbəti xəbərdarlıq...

## Hansı tədbirlər görülür?

Bir neçə gün öncə-oktyabrın 19-dan 20-nə keçən gecə paytaxta yağan yağış bir sıra fəsadlara yol açmışdı. Belə ki, Sabunçu Dəmir Yolu Vağzalı yaxınlığındakı tunel yağış nəticəsində yolun əsas hissəsinə qədər su altında qalıb. Ərazidə yaranan gölməçə sürücülərə ciddi çətinliklər yaradıb.

Yağışın fəsadları nəticəsində Xəzər Universitetinin yeməkxanasını da su basıb. Bundan başqa, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) binasında da problem yaşanıb. Rəsmi məlumata görə, paytaxta düşən yağıntının miqdarı normadan 3 dəfə çox olub.

## Temperatur 4-6 dərəcə aşağı enəcək

Bakıda və Abşeron yarımadasında növbəti dəfə yağış yağacağı və leysan olacağı ilə bağlı xəbərdarlıqlar edilib. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb. Bildirilib ki, paytaxtda və Abşeron yarımadasında oktyabrın 26-sı axşamdan 27-si səhərədək arabir yağış yağacağı gözlənilir. Axşam və gecə yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə aşağı enəcək.

Qeyd edilib ki, çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, o cümlədən Lənkəran-Astara bölgəsinin bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.



## Bəzi boruların istismar müddəti bitib

Yağışın törətdiyi fəsadlarla bağlı açıqlama verən İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mətbuat katibi Ceyhun Musaoğlu bildirib ki, yağıntılarla bağlı küçələrdə subasmasının səbəbi yağıntının illik normadan dəfələrlə artıq olması, o cümlədən yağış sularının axıdılması üçün istifadə olunan kollektorlarda yaranan problemlərdir. Mətbuat katibi qeyd edib ki, Bakı şəhərinin əksər ərazilərində fəaliyyət göstərən borular, drenaj sistemlər sovet dövründən qalıb, bəzilərinin istismar müddəti bitib: “Təbii ki, bunlar zaman-zaman dəyişdiriləcək. Bəzi yerlərdə drenaj sistemi ilə axıntı sularını aparan kollektorlar demək olar birləşiblər, eyni funksiyanı yerinə yetirirlər. Bunların da zaman zaman bir- birindən ayrılması prosesi həyata keçiriləcək”.

## Evlər harada gəldi inşa olunur...

Xidmət rəsmisi qeyd edib ki, əvvəlki illərlə müqayisədə Bakıda evlərin, xüsusilə həyət evlərinin sayı artıb və bu evlər harada gəldi inşa olunur: “Obyektlərin çoxu magistral xətlərin, su xətlərinin, kanalizasiya xətlərinin, kollektorların üzərində inşa olunublar. Əksər kollektorlar qapalı vəziyyətdədir, üzərinə betonlar tökülüb. Hazırda bu kimi neqativ vəziyyətin aradan qaldırılması üçün də işlər görülür”.

## Bütün güc səfərbər olunub

C.Musaoğlu bildirib ki, normadan artıq yağan yağışların yaratdığı fəsadlarla bağlı birinci şəxsdən rəhbərliyə qədər hər kəs səfərbər olaraq işləyir: “Problemin aradan qaldırılması üçün İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti, o cümlədən Regional Su Meliorasiya Xidməti gücləndirilmiş iş rejimində fasiləsiz fəaliyyət göstərir. Elə yerlər var ki, suyun axması üçün nəzərdə tutulan cığırların üzərində evlər, restoranlar tikilib, artıq su kanallara tökülə bilmir. Bir məsələni də diqqətinizə çatdırım ki, “Bakı şəhərinin Baş planı 2040”da şəhər ərazisində yağış drenaj boru xətləri ilə məişət, kanalizasiya xətlərinin bir-birindən ayrılması, yağış sularının toplanması və təkrar istifadəsinin təşkili nəzərdə tutulub. Artıq bu işlərin həyata keçirilməsi üçün işlər başlayıb”.

*Yeganə BAYRAMOVA*






# “Nar” abunəçiləri üçün “NarKredit”dən data kredit xidməti

Sərfəli mobil operator “Nar” abunəçilərinə balanslarında yetərli məbləğ olmadığı zaman “NarKredit” xidməti vasitəsilə internet paketləri sifariş vermək imkanı yaradıb. Abunəçilər *771#200#YES şifrəsini yığmaqla 200 MB və *771#800#YES şifrəsini yığmaqla 800 MB həcmində data kredit götürə bilər.

Sifariş olunan 200 MB data kredit üçün 0.68 AZN, 800 MB data kredit üçün isə 1.88 AZN məbləğ hesablanır. Bu məbləğlər data paketi, xidmət haqqı və sorğu xərclərinin tam dəyərini özündə ehtiva edir və paketlərin ümumi dəyəri abunəçi balansını artırdığı zaman çıxılır.

Qeyd edək ki, birdən çox data kredit götürmək də mümkündür - bu zaman ümumi kredit məbləği abunəçinin mövcud limitinə əsasən dəyişir. “Nar” nömrəsinin mövcud data kredit borcunu *771#150#YES şifrəsi ilə nəzarətdə saxlamaq mümkündür.

“NarKredit” xidmətindən istifadə etməzdən öncə *771#7#YES şifrəsini yığaraq nömrənizin kredit götürmək üçün uyğunluğunu yoxlayın. Həmçinin, nar.az/Narkredit səhifəsindən xidmət haqqında bütün məlumatı əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# İdman

## Azərbaycanın UEFA reytinqində mövqeyi dəyişməyib




Azərbaycanın UEFA reytinqində mövqeyi dəyişməyib.

“Report” xəbər verir ki, ötən gün Avropa Liqasının Liqa mərhələsinin III turunda Niderlandın “Ayaks” klubuna 0:3 hesabı ilə məğlub olan “Qarabağ” ölkənin əmsalını artıra bilməyib.

28-ci pillədə olan Azərbaycanın əmsalı 19,125-ə bərabərdir. Reytinq cədvəlində Azərbaycanla eyni əmsala malik Bolqarıstan 27-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, 55 ölkənin yer aldığı reytinq siyahısına İngiltərə (94.303) başçılıq edir.

## Velosipedçimiz Balkan çempionatında gümüş medal qazanıb



Azərbaycan velosipedçisi Tural İsrafilov Bolqarıstanın Plovdiv şəhərində keçirilən I Balkan çempionatında gümüş medal qazanıb.

“Report” xəbər verir ki, velosipedçi skretç növündə uğurlu çıxış edərək fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, o, 10 km məsafəyə yürüşdə mükafatçılar sırasına düşüb.

## Gimnaziada: Azərbaycan cüdoçusu qızıl medal qazanıb

Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında Azərbaycan cüdoçularının dueli baş tutub.

AZƏRTAC xəbər verir ki, 50 kiloqram çəki dərəcəsində çıxış edən Məhəmməd Rüstəmli finalda Azərbaycanın digər təmsilçisi Anar Quliyevlə qarşılaşıb. Rəqibinə ipponla qalib gələn M.Rüstəmli qızıl, A.Quliyev isə gümüş medala yiyələnib.

Yığmanın digər üzvü Rüstəm Qasımzadə (55 kiloqram) isə bürünc mükafata sahib çıxıb.

Qeyd edək ki, Azərbaycan oyunlarda qızlar və oğlanlar arasında 13 çəki dərəcəsində 24 cüdoçu ilə təmsil olunur. Cüdo yarışlarına oktyabrın 26-da yekun vurulacaq.

“Yarışa çox yaxşı hazırlaşmışdım. Sevinirəm ki, əziyyətim yerdə qalmadı”.

Bu sözləri Gimnaziada İdman Oyunlarında qızıl medal qazanan Azərbaycan cüdoçusu Məhəmməd Rüstəmli (50 kiloqram) deyib. O, bütün görüşlərə inamlı çıxdığını bildirib: “Özümə inanırdım. Bilirdim ki, Vətənə qızıl medalla qayıdacağam. Medalımı 44 günlük Vətən müharibəsində canından keçmiş şəhidlərimizə həsr edirəm”.




İdmançı finalda Azərbaycanın digər təmsilçisi Anar Quliyevlə qarşılaşmasından bəhs edib: “O da yarışa çox yaxşı hazırlaşmışdı. Mənim qədər əziyyət çəkmişdi. Lakin yekunda güclü olan qalib gəldi”.

M.Rüstəmli növbəti hədəfinin Yunanıstanda keçiriləcək Avropa Kubokunda uğurlu nəticə qazanmaq olduğunu söyləyib.

## “Sumqayıt” Özbəkistan millisinin futbolçusunu transfer edib

“Sumqayıt” daha bir futbolçunun keçidini reallaşdırıb.



Klubdan AZƏRTAC-a verilən məlumata görə, “gənclik şəhəri” təmsilçisi son olaraq Özbəkistanın “Neftçi” (Fərqanə) klubunda çıxış etmiş Cəsurbek Cəloliddinovla mövsümün sonuna qədər müqavilə imzalayıb. 22 yaşlı yarımmüdafiəçi “Sumqayıt”ın heyətində 77 nömrəli formada çıxış edəcək.

Qeyd edək ki, “Paris-2024” Yay Olimpiya Oyunlarının iştirakçısı olmuş Cəsurbek Cəloliddinov karyerası ərzində “Bunyodkor”, “Andijan”, “Lokomotiv” (Daşkənd), “Olimpik” (hamısı Özbəkistan), “Lokomotiv” (Moskva), “Tambov” (hər ikisi Rusiya) və “Kayrat” (Qazaxıstan) klublarında çıxış edib. O, Özbəkistanın U-19, U-21, U-23 və əsas milli komandalarının da şərəfini qoruyub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4832**
**Sifariş: 2453**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli